24 yanvar 2024 №6 (2071)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Şəhər içində şəhər – qara necə ağarır?

### Əsr yarım neftlə çirklənmiş yerlər indi Bakının ultramüasir məkanıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Bakı Ağ Şəhərin Mərkəzi Park kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşan Bakı Ağ Şəhər Ofis binasında yaradılan şəraitlə tanış olub.




Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, hazırkı Ağ Şəhərin ərazisi 150 ildən çox idi ki, Qara şəhər kimi tanınırdı. Bu da təsadüfi deyildi. Ərazi neft sənayesi tullantılarından çirklənmişdi. Burada çox sayda bataqlıq, gölməçə və neft tullantıları var idi. Bir sözlə, Qara şəhər əsl ekoloji fəlakət zonasına çevrilmişdi.

Bütün bu amilləri nəzərə alan Prezident İlham Əliyevin təşəbbüsü ilə Qara şəhərin yerində hazırda dünyanın ən müasir ekoloji layihəsi olan Ağ Şəhərin salınmasına başlanıldı.

Nadirliyi ilə seçilən Bakı Ağ Şəhər layihəsinin təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən 2011-ci il dekabrın 24-də qoyulub. Bakının ekoloji cəhətdən ən çox çirklənmiş bu yerində aparılmış irimiqyaslı tədbirlər nəticəsində həm şəhərsalma, həm memarlıq, həm sakinlərin rahat yaşayışı, həm də ekoloji baxımdan, sözün əsl mənasında, möcüzəvi layihə reallaşdırılıb.

Dövlətimizin başçısının sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində başlanan Bakı Ağ Şəhər layihəsi irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi də artıq dünyada tanınıb. Dünyanın aparıcı şirkətlərinin yerli mütəxəssislərlə birgə layihələndirdiyi bu yaşayış məkanı bir çox beynəlxalq sərgilərdə mükafatlara layiq görülüb. İndi bu ərazi Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yaşayış və gəzinti zonalarından birinə çevrilməkdədir.

Ümumilikdə 1650 hektar ərazini əhatə edən Bakı Ağ Şəhərdə müxtəlif üslublu 10 kvartalın salınması, 350 hektar landşaft işlərinin görülməsi, 10 kilometr bulvar xəttinin yaradılması nəzərdə tutulub. İndiyədək 91 binanın inşası yekunlaşıb. Layihənin tam yekunlaşmasından sonra burada 280 min sakin yaşayacaq və 240 min iş yeri yaradılacaq.

Məlumat verilib ki, inşası mərhələli şəkildə həyata keçirilən Bakı Ağ Şəhərin Mərkəzi Park rayonunda bir sıra binaların, ictimai yerlərin tikintisi artıq başa çatıb, infrastruktur işləri həyata keçirilib. Müxtəlif küçələrin tikintisi, yeraltı kommunikasiya infrastrukturunun qurulması ilə bağlı işlər də yekunlaşıb. Layihələndirmə işləri zamanı Bakı Ağ Şəhərdə inşası nəzərdə tutulmuş Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiya hazırlanıb.

davamı səh.2-də

## "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı"nın Tədbirlər Planı təsdiq edilib




"Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.

Baş nazir Əli Əsədov bununla bağlı 19 yanvar 2024-cü il tarixində Nazirlər Kabinetinin müvafiq sərəncamını imzalayıb.

Tədbirlər Planı "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 noyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə tərtib edilib.

Xatırladaq ki, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib.

Dövlətimizin başçısının sərəncamında Nazirlər Kabinetinə bununla bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Nazirlər Kabinetinin sərəncamı ilə təsdiq olunan "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı" 16 bənd-bölmədən ibarətdir.

Nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi müəyyən edilib.

davamı səh.2-də

## Teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə dair müşavirə keçirilib

Yanvarın 22-də mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə həsr olunan müşavirə keçirilib.

Mədəniyyətə dövlət qayğısından danışan nazir bildirib ki, ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bununla belə, müasir dövrün çağırışlarına uyğun olaraq, mədəniyyət sahəsinə yeni yanaşmalar tətbiq edilməlidir.

səh.3

## "Xocalı haqqında yaxşı məlumatlıyam, xocalılıların hekayətlərini dinləmişəm"

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın apardığı işğal siyasətinin ən dəhşətli səhifələrindən biri Xocalı faciəsidir. 1992-ci ilin fevralında Xocalıda törədilmiş soyqırımı insanlıq əleyhinə ən müdhiş cinayətlərdən sayılır. Siz Qarabağ hesabatını hazırlamaq üçün regiona səfəriniz çərçivəsində Xocalı soyqırımından salamat qurtarmış şahidlərlə, eləcə də Ermənistan ərazisindəki tarixi torpaqlarından 1980-ci illərin sonlarında deportasiya edilmiş azərbaycanlılarla görüşmüsünüz. Əgər həqiqətən obyektiv və ədalətli hesabat hazırlamaq fikriniz var idisə, bəs nə üçün həmin görüşlərlə bağlı mülahizələriniz hesabatda yer almayıb?

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Rafael Hüseynov qurumun İnsan haqları üzrə komissarı Dunya Miyatoviçə bu sualla müraciət edib.

davamı səh.2-də

## Türk dövlətlərinin kinoya məsul şəxsləri Bakıda bir araya gəliblər

### Molla Nəsrəddin haqqında müştərək film layihəsi müzakirə olunub

Türk xalqlarının məşhur folklor qəhrəmanı Molla Nəsrəddin haqqında birgə film çəkiləcək. Bununla bağlı qərar TÜRKSOY Daimi Şurasının ötən ilin 13-14 oktyabr tarixlərində Şuşa şəhərində keçirilən 40-cı iclasında qəbul olunub.

Layihə ilə əlaqədar Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyədən kinorejissorlar yanvarın 18-də Bakıda bir araya gəlib. Bu barədə TÜRKSOY məlumat yayıb.

Məlumatda bildirilir ki, toplantı TÜRKSOY-un koordinasiyası ilə Azərbaycan Mədəniyyət Nazirliyində keçirilib. Toplantıda Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycan Respublikası Kino Agentliyi sədrinin vəzifəsini icra edən Orxan Fikrətoğlu, Qırğızıstan Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyi Kino idarəsinin baş direktoru Akjoltoy Bekbolatov, Özbəkistan Mədəniyyət Nazirliyi Kino Agentliyinin direktoru Bahodir Adiliv, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin baş direktoru Erkin



Yılmaz, TÜRKSOY-un Azərbaycan üzrə nümayəndəsi Elçin Qafarlı və digər rəsmilər iştirak ediblər.

Toplantıda diqqətə çatdırılıb ki, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli TÜRKSOY Daimi Şurasının ötən il Şuşada keçirilən iclasında Molla Nəsrəddin haqqında müştərək filmin çəkilməsi təşəbbüsü ilə çıxış edib və təşəbbüs yekdilliklə qəbul olunub.

Filmin quruluşçu rejissoru qismində çıxış edəcək Xalq artisti Vaqif Mustafayev və prodüser Zaur Darabzadə layihə haqqında ətraflı məlumat veriblər.

Nazir Adil Kərimli Türk dünyasının ilk birgə film layihəsinin əhəmiyyətini yüksək qiymətləndirib, onun gələcəkdə kino sahəsi üçün yeni imkanlara zəmin olacağını diqqətə çatdırıb. O, birgə layihəyə görə TÜRKSOY-a və qardaş ölkələrin kino təmsilçilərinə təşəkkürünü bildirib, Azərbaycanın Mədəniyyət Nazirliyinin filmin ərsəyə gəlməsi üçün hərtərəfli dəstək verəcəyini deyib.

Baş katibi Sultan Raev bu yaxınlarda Özbəkistanın paytaxtı Daşkənddə əsası qoyulan TÜRKFİLM-in (Türk Dünyası Kinorejissorlar Assosiasiyası) əhəmiyyətini vurğulayıb. O, Molla Nəsrəddin haqqında filmin uğurlu alınacağına inamını ifadə edib, TÜRKSOY-un bu istiqamətdə təcrübə mübadiləsinin artırılması üçün də dəstək olacağını diqqətə çatdırıb.

mövzunun davamı səh. 5-də

## Xudafərin qəsəbəsi belə olacaq

### Tikinti işləri başlayıb



Cəbrayıl rayonunun yenidən salınan Xudafərin qəsəbəsində tikinti işlərinə başlanılıb. Tikinti işlərində "dayanıqlı kənd", "yaşıl enerji" və "dayanıqlı nəqliyyat" yanaşmaları əsas götürülüb.

səh.4

## Bakıda Çin Yeni ili festivalı

### Qarlı qışda baharı salamlamaq...

Yanvarın 23-də Azərbaycan Milli Xalça Muzeyində "Baharı salamlayan Əjdaha. Çin Yeni ili festivalı"nın açılışı keçirildi.

Tədbir Milli Xalça Muzeyi və Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun təşkilatçılığı, Çinin ölkəmizdəki səfirliyinin dəstəyi ilə gerçəkləşir.

Açılış mərasimində Milli Xalça Muzeyinin direktoru vəzifəsini müvəqqəti icra edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Mira Məmmədxanova bildirdi ki, festival müddətində Çinin qədim çay mərasimi, kalliqrafiya sənəti, uşu və kunq-fu üzrə ustad dərsləri, mühazirələr təşkil olunacaq. Ənənəvi bayram atributları iştirakçılara əsl Çin Yeni ili ab-havası yaşadacaq. Ecazkar ölkənin ənənəvi sənət nümunələri üzrə ustad dərsləri Bakıdakı Konfutsi İnstitutunun müəllimləri aparacaq. Festival çərçivəsində muzeyin Uşaq şöbəsinin əməkdaşları tərəfindən Azərbaycan xalçalarındakı əjdaha təsvirlərinə həsr olunmuş kölgə



teatr tamaşası göstəriləcək, əjdaha naxışlı xalçanın toxunması və bu mövzuya aid digər ustad dərsləri keçiriləcək.

Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Min Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiklərini, iki ölkə arasında mədəni əməkdaşlığın münasibətlərin möhkəmlənməsinə xidmət etdiyini bildirdi.

davamı səh. 2-də



Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

səh. 4



Gənclər səhnəsində premyeralar

səh. 5



"Berlinale – 2024"ün proqramı elan edilib

səh.8

№6 (2071)
24 yanvar 2024
www.medeniyyet.az

# Şəhər içində şəhər – qara necə ağarır?

## Əsr yarım neftlə çirklənmiş yerlər indi Bakının ultramüasir məkanıdır



əvvəli səh. 1-də

Mərkəzi Park kvartalı 2017-ci ildə istifadəyə verilmiş "Paris evləri"ndən başqa 36, 20 və 8 mərtəbəli binalardan, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binalarından, ticarət və iaşə obyektlərindən, orta məktəbdən, ofis və inzibati binalardan ibarətdir. Layihələndirmə zamanı burada yaşayış massivinin ərazisində yaşıl zonalar da nəzərdə tutulub. Onların arasında "Dağdağan bağı" da var.

Vətəni Qarabağ olan dağdağan ağacı Azərbaycan təbiətinin rəmzlərindən biridir. Prezident İlham Əliyev 2021-ci ilin mayında Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində Ağdam şəhərində dağdağan ağacı əkib. Dağdağan ağacları Ağ Şəhərə Qarabağdan gətirilib.

Dövlətimizin başçısı bağın ərazisində dağdağan ağacı əkib.

Son illər Bakı Ağ Şəhər həm də bir sıra yerli və beynəlxalq incəsənət ustalarının öz əsərlərini nümayiş etdirdiyi bir məkana çevrilib. Ağ Şəhərin mərkəzi küçələrindən olan və inşası əsasən tamamlanmış Bulvar küçəsində yerli və xarici rəssamların əsərləri quraşdırılıb.

Heykəltaraş Enrike Kabreranın "Böyük alma" əsəri onun ən mühüm sənət layihələrindən biridir. Nyu-Yorkda quraşdırılmış "Böyük alma" bu şəhərin rəmzini təcəssüm etdirməklə onun sakinləri və qonaqları arasında çox məşhurdur. Bu əsərin ikincisi isə Bakı Ağ Şəhərdə sərgilənir.

Azərbaycan MAAS incəsənət qurumunun müasir üslubda hazırladığı hündürlüyü 4,2 metr olan "Əjdaha" heykəli 2024-cü ilin rəmzinə (Şərq təqvimi ilə) həsr olunub.

Cozef Klibanskinin "Mütəfəkkir" əsəri müasir insanın texnoloji inkişaf dövrünü, ekoloji və qlobal istiləşmə problemlərindən yaranan həyəcanlarını əks etdirir. Bürüncdən hazırlanmış heykəl artıq bütün dünyada sənətsevərlərin rəğbətini qazanıb.

Xatırladaq ki, bu adda ("Mütəfəkkir") ilk heykəltəraşlıq əsəri ilk dəfə XIX əsrdə fransız Ogüst Roden tərəfindən (Dantenin "İlahi komediyası"ndan ilhamlanaraq motivi əsasında) yaradılıb. Sonralar bu obraz müxtəlif sənətkarların fərqli kontekstlərdə yaratdığı əsərlərdə təcəssüm tapıb.

C.Klibanskinin "Mütəfəkkir"i kainatın gələcəyi barədə fikrə dalmış astronavt obrazıdır. Heykəlin müəllifi 2014-cü ildə Bakının zəngin memarlığından, qədimliyin və müasirliyin vəhdətindən ilhamlanaraq Azərbaycanın paytaxtının gözəlliyini tərənnüm edən "Gözəl Bakı" əsərini də yaradıb.

Prezident İlham Əliyev tikintisi başa çatan Bakı Ağ Şəhər Ofis binası ilə də tanış olub. İnşasına 2020-ci ildə başlanılan binada dünyanın aparıcı memarlıq şirkətləri tərəfindən layihələndirilmiş müasir tikililərin maketləri təqdim olunur. Ofis binası ətraf mühitin mühafizəsi siyasətinə tam uyğundur və beynəlxalq ekoloji sertifikatlaşdırma təşkilatından (BREEAM) sertifikat alıb. Qeyd edilib ki, 2030-cu ildən sonra dünya iqliminin temperaturunun 1,5 dərəcə artması proqnozu ilə əlaqədar müvafiq



(CRREM) tələblərə uyğunluğu təmin etmək məqsədilə binanın damında günəş panellərinin quraşdırılması nəzərdə tutulub.

Binada, eyni zamanda, Qarabağ atlarının dünyada təbliği məqsədilə İspaniyanın tanınmış "Lladro" şirkəti tərəfindən hazırlanmış Qarabağ atının farfordan stolüstü heykəli təqdim olunur. Bu heykəl məhdud kolleksiyadır və şirkətin 100-dən çox ölkəsində olan geniş şəbəkəsi vasitəsilə satışa çıxarılacaq.

Diqqətə çatdırılıb ki, binada 150 ofis yerləşir. İnformasiya texnologiyalarından dayanıqlı istifadə məqsədilə Data Center yaradılıb.

Binanın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradılıb, yerli iqlimə uyğunlaşdırılmış müxtəlif ağaclardan ibarət yaşıllıq zolağı salınıb.

Ərazidə qoyulmuş Qarabağ atı heykəli Qarabağ Atları meydanında yerləşəcək "Qarabağ atları" monumenti kompleksindəki 7 atdan biridir. Təməli dövlətimizin başçısı tərəfindən 2022-ci ilin dekabrında qoyulan kompleks Azərbaycanın Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Kompleksin yaradılması orijinal əsərləri ilə dünyada məşhur olan amerikalı heykəltaraş Robert Sammers tərəfindən həyata keçirilir.

# "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı"nın Tədbirlər Planı təsdiq edilib

əvvəli səh. 1-də

Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilib.

Tədbirlər Planına əsasən, "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı – 2024" ilinin rəsmi açılışı may ayına nəzərdə tutulub. İl ərzində İslam Dünyasının Mədəniyyət Forumunun təşkil edilməsi və bu çərçivədə Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransının, "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda dəyirmi masa və sərginin, digər tədbirlərin keçirilməsi gözlənilir.

İslam ölkələrində "Şuşa günləri"nin keçirilməsi və tədbirdə folklor incəsənət qruplarının, Qarabağ xalçalarının, foto və rəsm əsərlərinin nümayişi, kitab təqdimatlarının keçirilməsi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) qərargahında (Mərakeşin Rabat şəhəri – red.) Şuşaya həsr edilmiş birgə elmi və mədəni tədbirlərin təşkili də nəzərdə tutulub.

İslam ölkələrinin mədəniyyət paytaxtlarının "Şuşa şəbəkəsi"nin yaradılması və ilk görüşünün keçirilməsi, İslam dünyasında turizmin inkişafı mövzusunda beynəlxalq konfransın və "İslam ölkələrinin ortaq süfrəsi" kulinariya festivalının təşkili, ICESCO-nun "A-Hub Akselerasiya Proqramı"nın (2023-cü il üzrə) böyük finalının Azərbaycanda keçirilməsi də gözlənilən tədbirlər sırasındadır.

Bundan əlavə, Şuşada İslam ölkələrinin rəssamlarının və fotoqraflarının sərgi və düşərgəsinin təşkili, İslam ölkələrinin yaradıcı gənclər arasında müxtəlif müsabiqələrin, o cümlədən vizual sənət növləri üzrə internet müsabiqəsinin keçirilməsi, Şuşanın İslam mədəniyyətinə töhfə vermiş tarixi-dini irsi və şəxsiyyətləri haqqında sənədli filmin (müxtəlif dillərdə) hazırlanması və s. tədbir və layihələr də nəzərdə tutulub.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib

Yanvarın 22-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası olub.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini, ölkəmizin baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılması öhdəliyini götürdüyünü, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, habelə Naxçıvan Muxtar Respublikasının "Yaşıl enerji" zonası elan edildiyini bildirib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsidir.

Vurğulanıb ki, Azərbaycan ətraf mühitin qorunması və qlobal iqlim dəyişmələri sahəsində beynəlxalq səyləri daim dəstəkləyir və bu prosesə töhfələr verir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının növbəti 29-cu sessiyasının ölkəmizdə keçirilməsi barədə yekdil qərarın qəbul edilməsi ölkəmizə beynəlxalq səviyyədə olan hörmət və etimadın bariz göstəricisidir.



Təşkilat Komitəsinin sədri 2023-cü il dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-la bağlı keçirilmiş müşavirədə hazırlıq işlərinə dərhal başlanılması barədə verdiyi tapşırığa toxunaraq, tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

Samir Nuriyev bu həftə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinin Azərbaycana texniki missiya göndərəcəyini, dialoq şəraitində hazırlıq işlərinin aparılacağını deyib, eyni zamanda, beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaş kimi Azərbaycanın əvvəlki illərdə COP-a ev sahibliyi etmiş ölkələrlə təcrübə mübadiləsi apardığını diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev dövlətimizin başçısının COP29-la bağlı tapşırıqlarının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Təşkilat Komitəsinin üzvlərinin gündəlikdə duran məsələlər üzrə məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin Katibliyinin, COP29 prezidentinin, Əməliyyat şirkətinin fəaliyyəti, COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının yekunlaşdırılması və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Bakıda Çin Yeni ili festivalı

## Qarlı qışda baharı salamlamaq...



əvvəli səh. 1-də

Diqqətə çatdırıldı ki, Yeni ilin başlanması Şərqi Asiya ölkələrində, xüsusən də Çində böyük təmtəraqla qeyd olunur. Dörd min ildən çox tarixə malik Yeni il bayramı Çində bütün ailənin bir yerə toplaşması üçün gözəl fürsətdir.

Çinlilərin ən əziz bayramı olan yaz festivalının bir çox ənənə və ayinlərlə zəngin olduğunu bildirən səfir dedi: "İnsanlar Yeni ilə bir neçə gün əvvəldən tədbir görürlər. Hədiyyələr alır, bayramın rəmzlərini əks etdirən suvenirlər hazırlayırlar. İnanca görə, bayram günü qırmızı geyinmək növbəti ildə uğurlara yol açır...".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Çin Yeni ili münasibətilə təbriklərini çatdırdı. Qeyd etdi ki, Milli Məclisdə Azərbaycan-Çin parlamentlərarası komissiyası ən geniş qrupdur. Millət vəkili iki ölkə arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb.

Tədbir iştirakçılarına Çin dilində müraciət edən Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov Yaşıl Əjdaha ili ilə bağlı əfsanə barədə məlumat verdi. Bildirdi ki, yanvarın 28-dək davam edəcək "Baharı salamlayan Əjdaha. Çin Yeni ili festivalı" iki ölkə arasında mədəni əlaqələrin inkişafına töhfə olacaq.

Çıxışlardan sonra Çin milli rəqsləri və Konfutsi İnstitutu tələbələrinin çıxışları alqışlarla qarşılandı.

Daha sonra tədbir ustad dərsləri ilə davam etdi.

**Lalə Azəri**

# "Xocalı haqqında yaxşı məlumatlıyam, xocalıların hekayələrini dinləmişəm"

## Elə isə niyə bunlar Avropa Şurası komissarının hesabatında əks olunmayıb?

əvvəli səh. 1-də

Sualı cavablandıran komissar deyib ki, o, Xocalı haqqında yaxşı məlumatlıdır və Azərbaycana səfəri zamanı bir çox zərərçəkənlərlə görüşüb, onların hekayətlərini dinləyib. "Təbii ki, mən bütün görüşlərimi məruzədə əks etdirmək imkanında deyildim. Ancaq hər halda məruzədə bu məsələlərlə bağlı ayrı-ayrı müddəalar var. Bilirsiniz ki, mən Bosniya və Herseqovinadanam, sarayevoluyam. Ona görə də çox yaxşı anlayıram ki, lazım olan yerdə ədalətin bərqərar olmamasını görmək nə deməkdir. Ancaq indi istəyim başqadır. Arzu edirəm ki, daha çox gələcəyə baxaq. Münaqişənin hər iki tərəfinə bu çağırışı edirəm ki, sülh naminə insan haqları üzrə yol xəritəsinin tərtibi ilə əlaqədar birgə işə başlayaq", – deyə D.Miyatoviç bildirib.

Xatırladaq ki, bu günlərdə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Avropa Şurası komissarının Ermənistana və Azərbaycana səfərindən sonra hazırlanmış hesabatına dair şərhi yayılıb.

Məlumatda diqqətə çatdırılır ki, komissarın müşahidələrində vurğulandığı kimi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı səbəbindən 30 ildə bölgəyə belə bir səfər gerçəkləşməmişdi və bu, Azərbaycanın Qarabağ bölgəsinə insan hüquqları üzrə ilk missiyadır. Azərbaycan hökumətinin dəvəti və razılığı ilə həyata keçirilmiş səfər rəsmi Bakının beynəlxalq insan hüquqları institutlarına münasibətdə şəffaflığının və əməkdaşlığının göstəricisidir.

Şərhdə qeyd olunur ki, bütövlükdə, hesabatda 2023-cü il sentyabrın 19-20-də Azərbaycanın suveren ərazilərində mülki ərazilərə münasibətdə ciddi ehtiyat tədbirləri görülməklə silahlı qüvvələr tərəfindən həyata keçirilmiş lokal antiterror tədbirləri nəticəsində qondarma "etnik təmizləmə" və ya "məcburi köçkünlük" ilə bağlı əsassız iddialar heçə endirilib. Komissarın bölgəyə səfəri və apardığı müşahidələr onu göstərib ki, Azərbaycan hakimiyyəti tərəfindən heç bir güc tətbiq olunmadan Azərbaycanın Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarları olub.

Hesabatda xüsusən terrorla mübarizə tədbirlərinin sonra geri qayıtmaq hüququnun və digər insan hüquqlarının təmin edilməsi məqsədilə Azərbaycan hökumətinin atdığı bir sıra konkret addımlar göstərilir. Burada yerli erməni sakinlərin reinteqrasiyası məsələsinə və bu proses çərçivəsində nəzərdə tutulan tədbirlərə Azərbaycanın müsbət niyyəti və yanaşması vurğulanır.

Komissarın hesabatında münaqişənin və Ermənistan tərəfindən işğalın xarabalığa çevrilmiş mülki infrastruktura uzunmüddətli təsirləri, azərbaycanlı məcburi köçkünlərin azad edilmiş rayonlara təhlükəsiz və ləyaqətlə qayıtmaq hüququnun təmin edilməsi məqsədilə aparılan minatəmizləmə və yenidənqurma işləri də əksini tapıb.

Bundan əlavə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kütləvi şəkildə minalarla çirklənmə üzrə kəskin problem və bunun ərazilərin reabilitasiyasına, eləcə də keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtma prosesinə qarşı yaratdığı əngəllər, habelə onların sağlamlığı və həyatı üçün ciddi risklər hesabatda vurğulanır. Bu məqsədlə, komissar Azərbaycan hökumətinin geri qayıtma prosesini asanlaşdırmaq üçün atdığı addımları alqışlayır.

Azərbaycan XİN diqqətə çatdırır ki, bütün bunlara baxmayaraq, təəssüf ki, sənəd Ermənistanın başlatdığı və Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı ilə nəticələnən münaqişənin təsirinə məruz qalmış bütün insanların ümumi insan hüquqlarının vəziyyəti ilə bağlı fundamental reallıqları həqiqi mənada əks etdirmir: "Ermənistanın təcavüzü on minlərlə uşağı əsas insan hüquqlarından, o cümlədən yaşamaq, təhsil, təhlükəsizlik, müdafiə və sağlamlıq hüququndan ciddi şəkildə məhrum edib. Regionda iki xalq arasında düşmənçiliyə səbəb olan belə dəlillərin komissarın müşahidələrində layiqincə işıqlandırılacağına ümid bəsləyirdik...

Azərbaycan tərəfi təəssüf edir ki, komissarın Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımından sağ çıxan şəxslərlə, o cümlədən müasir Ermənistanda öz yurd-yuvalarından qovulmuş Qərbi Azərbaycan İcmasının üzvləri ilə keçirdiyi görüşlər hesabatda öz əksini tapmayıb. Bu, komissarın səfərinin dəqiq təsvirini, habelə hesabatın əhatə etmək məqsədi daşıdığı insan hüquqları, o cümlədən geri qayıtmaq hüququ məsələlərinə daha əhatəli yanaşmanı təmin edərdi".

XİN-in şərhində də vurğulanır ki, Azərbaycan tərəfi AŞ komissarının tərəfsizliyə, qərəzsizliyə, bərabərliyə və bütün insan hüquqlarının universallığına əsaslanan müşahidələr aparacağını gözləyərək onu ölkəmizə səfərə dəvət edib. Səfərin nəticələrinə baxdıqda isə, komissarın müşahidələrində tam ədalətlilik və qərəzsizlik olmadığını görürük. Azərbaycan hesab edir ki, nəticələr komissarın səfəri zamanı birbaşa müşahidələrinə deyil, ilk növbədə, digər natamam və qərəzli mənbələrdən əldə edilən məlumatlara əsaslanır.

# Teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə dair müşavirə keçirilib





Yanvarın 22-də Beynəlxalq Muğam Mərkəzində mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə həsr olunan müşavirə keçirilib.

Mədəniyyətə dövlət qayğısından danışan nazir bildirib ki, ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyev tərəfindən mədəniyyətin müxtəlif istiqamətlərinin kompleks inkişafına xidmət edən ardıcıl addımlar atılır. Mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə çalışan insanların sosial vəziyyətinin yaxşılaşdırılması diqqətdə saxlanılır. Ölkə başçısının sərəncamları ilə mədəniyyət və incəsənət sahələrinin inkişafına töhfə verən insanlar müxtəlif dövlət təltiflərinə, təqaüd və fəxri adlara layiq görülürlər.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən mədəniyyətin inkişafı, təbliği, xüsusilə də mədəniyyət xadimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələr həyata keçirilir.

Bununla belə, müasir dövrün çağırışlarına uyğun olaraq, mədəniyyət sahəsinə yeni yanaşmalar tətbiq edilməlidir. Teatr-tamaşa və konsert müəssisələrində yaradıcılıq potensialının inkişaf etdirilməsinə, yüksək bədii və estetik dəyərə malik tamaşaların hazırlanmasına xüsusi diqqət yetirilməlidir.

Müşavirədə qeyd olunub ki, müəssisələrdə təhlükəsizlik qaydalarına ciddi riayət olunması, tamaşaçıların və işçilərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində mütəmadi tədbirlərin görülməsi, teatr-tamaşa və konsert müəssisələrinin, habelə Bakı Dövlət Sirkinin fəaliyyəti ilə bağlı vətəndaşlara xidmət göstərilməsi işinin təkmilləşdirilməsi istiqamətində müvafiq təhlillər aparılmalı və konkret tədbirlər görülməlidir. Bədii şuraların fəaliyyətinin canlandırılması, kollektivlərə yeni kadrların cəlb olunması, peşəkarlığın artırılması və bütün sahələrdə şəffaflığın təmin edilməsinin zəruriliyi də vurğulanıb.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əliqismət Lalayev, Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Naidə İsmayılzadə, Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə, Dövlət Mahnı Teatrının direktoru Kazım Qasımov, Dövlət Uşaq Filarmoniyasının direktoru Dilarə Əliyeva müvafiq sahələr üzrə təkliflərini səsləndiriblər.

# 20 Yanvara həsr olunmuş musiqi axşamı

Yanvarın 19-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Əvvəlcə faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Xalq artisti Gülbacı İmanova) çıxış edib. Solistlər – Əməkdar artist Anton Ferştandt (bariton) və respublika və beynəlxalq müsabiqələr laureatı Fatimə Cəfərzadənin (soprano) ifasında J.Bramsın "Alman rekviyemi" (op.45) səsləndirilib.




Kollektivin məharətli ifası 34 il öncə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsinə ehtiramın ifadəsi kimi səslənib.

# Bəstəkarlar İttifaqında anım tədbiri



Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) da 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirilib.

İttifaqın sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti Firəngiz Əlizadə bildirib ki, 1990-cı ilin yanvarın 20-nə keçən gecə müstəqilliyimiz, suverenliyimiz uğrunda canlarından keçən oğul və qızlarımız şəhidlik zirvəsinə yüksəlməklə milli şərəf və ləyaqət, vətənpərvərlik örnəyi oldular. Azərbaycan xalqının milli mücadilə, qəhrəmanlıq dastanı olan 20 Yanvar musiqimizdə də geniş şəkildə təcəssüm tapıb. Bəstəkarlarımız bu mövzuya dəfələrlə müraciət edərək dəyərli əsərlər yaradıblar.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Konservatoriyası Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının professoru Leyla Quliyeva "Azər Rzayevin "Bakı – 90" simfoniyası haqqında", Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı "Azərbaycan bəstəkarlarının yaradıcılığında şəhidlər mövzusu" adlı məruzə ilə çıxış ediblər.

Tədbirdə Azər Rzayevin "Bakı – 90" simfoniyasının DVD lent yazısı nümayiş olunub, Sevda Məmmədlinin yeni "Memories" – piano üçün pyesi müəllif tərəfindən səsləndirilib.

# "Qonağımız var" layihəsində yeni görüşlər



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzində "Qonağımız var" layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisası Xalq artisti Məleykə Əsədova ilə görüş keçirilib.

Aparıcı tədbiri açıq elan etdikdən sonra aktrisanın həyat və fəaliyyəti haqqında məlumat verib.

Məleykə Əsədova çıxışında sənətə gəlməyindən, yaratdığı obrazlar, sevdiyi rollar haqqında danışıb.

Sonra Xalq artisti şeirlər səsləndirib, iştirakçıları maraqlandıran sualları cavablandırıb.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə "Qonağımız var" layihəsi çərçivəsində daha bir görüş Şağan qəsəbə Mədəniyyət Mərkəzində gerçəkləşib. Əməkdar artist, müğənni Mətanət İsgəndərli musiqisevərlərin qonağı olub.

Görüşdə müğənninin həyat və yaradıcılığı haqqında məlumat verilib.

Mətanət İsgəndərli repertuarından bir neçə mahnı oxuyub, tamaşaçıların suallarına cavab verib.

# Ötən il elmdə hansı nəticələr əldə olunub?

## AMEA bölmələrinin hesabatları

2023-cü ildə AMEA-nın Humanitar Elmlər Bölməsinin (HEB) elmi müəssisələrində 34 problemə aid 75 mövzuya dair 469 tədqiqat işi aparılıb, 37 mövzu, 393 iş tamamlanıb.



Bunu AMEA HEB-in 2023-cü il üzrə illik hesabatının müzakirəsinə həsr olunmuş iclasda akademik Teymur Kərimli nitq söyləyib.

Teymur Kərimli bildirib ki, 2023-cü ildə bölmə əməkdaşlarının 108 kitabı (9-u xaricdə), 65 monoqrafiyası (7-si xaricdə), 10 dərslik, dərs vəsaiti və elmi-kütləvi nəşri çap edilib. 35 elmi məqalə "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda dərc olunub.

Akademik bölmə əməkdaşlarının elmmetrik göstəricilərini təqdim edib, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, bölmənin elmi jurnalları barədə məlumatları da diqqətə çatdırıb.

***

AMEA-nın İctimai Elmlər Bölməsinin elmi müəssisələrində isə 2023-cü ildə 26 problemə aid 76 mövzuya dair 308 tədqiqat işi aparılıb, 17 mövzu, 222 iş tamamlanıb. O cümlədən 40-dan çox elmi iş Qarabağa həsr olunub.

Bu barədə isə AMEA-nın İctimai Elmlər Bölməsinin 2023-cü ildəki fəaliyyətlərinə dair hesabat iclasında akademik Gövhər Baxşəliyeva məlumat verib.

Qeyd olunub ki, 2023-cü ildə bölmə üzrə 1927 əsər, o cümlədən 87 kitab (4-ü xaricdə), 58-i monoqrafiya, 14 dərslik və dərs vəsaiti nəşr edilib. 47 məqalə impakt faktorlu jurnalda dərc olunub.

***

AMEA-nın Yer Elmləri Bölməsi də 2023-cü ilin hesabatını verib. Hesabatı təqdim edən akademik Fəxrəddin Qədirov bildirib ki, ötən il bölmənin əhatə dairəsində olan elmi müəssisələrdə 14 problemi əhatə edən 43 mövzu üzrə elmi-tədqiqat işləri yerinə yetirilib, 13 elmi-tədqiqat işi başa çatdırılıb. Hesabat ilində 1 tətbiq işi tamamlanıb, 1 patent alınıb, təsərrüfat müqaviləsi əsasında 139 elmi-tətbiqi iş yerinə yetirilib.

Bölmənin elmi müəssisələrində 7 monoqrafiya, 12 kitab və 20 dərslik nəşr edilib, habelə "Web of Science" və "Scopus" bazasında olan impakt faktorlu jurnallarda 76 məqalə dərc olunub.

Müzakirələrdən sonra AMEA Rəyasət Heyətinin qərarı ilə hər üç bölmə üzrə hesabat təsdiq edilib.

# Ekspert şurası yaradılıb

## Repertuar və tamaşaların məzmunu qiymətləndiriləcək

Mədəniyyət Nazirliyi yanında Teatr-tamaşa müəssisələrinin illik repertuarlarının və dövlət sifarişi əsasında hazırlanan tamaşaların məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurası yaradılıb.



Şura Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələri tərəfindən təklif edilmiş illik repertuarların və dövlət sifarişi əsasında hazırlanan tamaşaların müvafiq müəssisənin profilinə, eləcə də milli-mənəvi dəyərlərə, cəmiyyət və dövlətin maraqlarına, sahə üzrə qabaqcıl təcrübəyə və keyfiyyət meyarlarına uyğunluğunun təmin edilməsinə nəzarəti həyata keçirir.

Yanvarın 18-də Ekspert şurasının ilk iclası təşkil olunub. Qeyd edilib ki, repertuar üçün təqdim olunan layihələr müvafiq teatrların fəaliyyət istiqamətlərinə, sahə üzrə qabaqcıl təcrübəyə əsaslanmalı, keyfiyyət amilinə diqqət yetirilməlidir. Layihələrin rejissor həllinin, rəssam şərhinin müasir dövrün tələblərinə cavab verməsi önəmli məsələdir. Repertuar seçimi zamanı Azərbaycan dilinin, mədəni dəyərlərimizin qorunması, inkişafı və zənginləşdirilməsi, cəmiyyətin bədii-estetik zövqünün formalaşdırılması, xüsusilə gənclərin maarifləndirilməsi və vətənpərvərlik ruhunda tərbiyəsi kimi məqamlar nəzərə alınmalıdır.

İclasda, həmçinin bildirilib ki, layihələr hazırlanarkən ideyanın düzgün əsaslandırılması, məqsəd və vəzifələrinin aydınlığı, habelə mövzunun aktuallığı və mədəniyyətin inkişafı ilə bağlı prioritet istiqamətlərə uyğunluğuna diqqət göstərilməlidir.

Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə yaradılan Ekspert şurasına Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor, Türkdilli Xalqların Teatr Rəhbərləri Şurasının sədri İsrafil İsrafilov başçılıq edir. Şuranın tərkibində doqquz üzv, o cümlədən Əməkdar incəsənət xadimləri, professorlar Məryəm Əlizadə, Aydın Talıbzadə, Əli Əmirli, həmçinin ekspertlərin sırasında sosioloq, psixoloq və teatr rəssamları yer alıb.

# Klassika hər zaman yenidir

## "Qaraca qız" yenidən səhnəyə çıxacaq



Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Qaraca qız" tamaşasının (müəlliflər Süleyman Sani Axundov və Abdulla Şaiq) oxunuş məşqlərinə başlanılıb.

Yeni yaradıcılıq işinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, rəssam Nisə Hətəmova, musiqi tərtibatçısı İradə Muradovadır.

Tamaşada Əməkdar artistlər Qəmər Məmmədova, Elnur Hüseynov, Mehriban Abdullayeva, Gülər Nəbiyeva, aktyorlar Rəşad Səfərov, Ramiq Nəsirov, Xalidə Əliməmmədova, Zemfira Əbdülsəmədova, İradə Rəşidova, Ədalət Əbdülsəməd, Elgün Yəhyayev, Asya Atakişiyeva, Nəzrin Zeynalova, Anar Seyfullayev, Ramil Məmmədov, Könül Əbilova, Simuzər Ağakişiyeva, Zümrüd Quliyeva, Aygün Fətullayeva, Hilal Dəmirov, Mətləb Abuşov, Nuranə Hüseynova, Gülbəniz Lətifova, Yusif Dadaşov, Xaliq Bəkirov iştirak edəcəklər.

Qeyd edək ki, indiyədək dəfələrlə səhnələşdirilən, ekranlaşdırılan (1966) "Qaraca qız" Azərbaycan uşaq ədəbiyyatının klassik nümunəsidir.

S.S.Axundovun 1912-1914-cü illərdə qələmə aldığı "Qorxulu nağıllar"dan biri olan "Qaraca qız" hekayəsi əsasında 1948-ci ildə şair, yazıçı, Azərbaycan uşaq dramaturgiyasının klassiki Abdulla Şaiq Gənc Tamaşaçılar Teatrı üçün eyniadlı pyes yazıb. Həmin vaxtdan əsər ölkənin bir çox teatrlarında tamaşaya qoyulub. Bundan əlavə, bəstəkar Əşrəf Abbasov bu əsər əsasında Azərbaycanda uşaqlar üçün ilk balet (libretto müəllifi Əfrasiyab Bədəlbəyli) yaradıb.

# İqtisadiyyatdan humanitar sahəyə və turizmədək

## Azərbaycan və Rusiya arasında Yol Xəritəsi imzalanıb

Yanvarın 22-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk ilə görüşüb.

Görüşdə qeyd edilib ki, 2022-ci il fevralın 22-də Azərbaycan və Rusiya prezidentləri tərəfindən Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

Dövlət başçılarının tapşırığına uyğun olaraq hazırlanmış 2024-cü ilədək olan dövr üçün Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə Yol xəritələrinin icrasının nəticələri yüksək qiymətləndirilib.

Bildirilib ki, Yol xəritələrinin icra olunduğu 2018-2023-cü illəri əhatə edən dövrdə Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı dinamikası təmin edilib, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq ötən il 4,3 milyard dollardan çox təşkil edib.

Görüşdə iki ölkə arasında enerji, kənd təsərrüfatı, gömrük-sərhəd infrastrukturunun təkmilləşdirilməsi, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Sonda Şahin Mustafayev və Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsini imzalayıblar.

Yol Xəritəsi ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığa dair yeni addımların atılmasını nəzərdə tutur.

№6 (2071)
24 yanvar 2024
www.medeniyyet.az

# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

Bölgələrdə 20 Yanvar – Ümumxalq Hüzn Günü münasibətilə müxtəlif səpkili tədbirlər keçirilib.

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən "20 Yanvar – qan yaddaşımız" adlı rəsm və kitab sərgisi keçirilib. Sərgidə fəal oxucuların 20 Yanvar faciəsinə həsr etdikləri rəsmlər, Qanlı Yanvar haqqında yazılmış kitablar nümayiş olunub.

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən oxu zalında "20 Yanvar – tariximizin şərəf və qəhrəmanlıq səhifəsi" adlı tədbir keçirilib. Tədbirdə Tələt Mikayılov adına şəhər 5 saylı tam orta məktəbin şagirdləri şəhidlərə həsr olunmuş kompozisiya ilə çıxış ediblər. Sonda "20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" adlı videoçarx nümayiş olunub, "Şəhidlərimizin əziz xatirəsi heç vaxt unudulmayacaq" adlı kitab sərgisinə baxış keçirilib.

Şabran Tarix-Diyarşünaslıq Muzeyində "20 Yanvar – Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi" adlı tədbir təşkil edilib. Şabran rayon Aygünlü kənd tam orta məktəbin müəllim və şagird kollektivinin hazırladığı kompozisiya nümayiş etdirilib, "20 Yanvar – 34 il" adlı sərgiyə baxış olub.

Qusar rayon Mədəniyyət Mərkəzi və filiallarının əməkdaşları 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Qusar Şəhidlər xiyabanını ziyarət ediblər. Daha sonra Mədəniyyət Mərkəzinin tamaşa zalında "Qan yaddaşımız – 20 Yanvar faciəsi" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

***

Şirvan-Salyan RMİ-nin təşkilatçılığı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinə həsr olunan rəsm sərgisi keçirilib. Sərginin açılış mərasimində Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, rayon musiqi və incəsənət məktəblərinin pedaqoji heyəti iştirak edib. "20 Yanvar milli qürur günümüzdür" adlı sərgidə Biləsuvar şəhər Orxan Əkbərov adına







Uşaq incəsənət məktəbi və Nihad Babayev adına Xırmandalı kənd Uşaq incəsənət məktəbi şagirdlərinin əl işləri nümayiş olunub.

Biləsuvar rayon Mədəniyyət Mərkəzində 20 Yanvar faciəsinə həsr olunan "Qisas" tamaşasının premyerası keçirilib. Biləsuvar rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Pəncərə" teatrının hazırladığı tamaşada xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin qəhrəmanlığından bəhs olunur. Yazıçı-publisist Ruhiyyə Abbaszadənin "Qisas" hekayəsinin motivləri əsasında hazırlanan tamaşanın rejissorları İlqar Dadaşov və Cahangir Məlikovdur. Tamaşada rolları Adil Əhmədov, Cahangir Məlikov, Günel Mirzəyeva, Seymur Həsənov, Sevil Əliyeva, Ceyhun Haxverdiyev, Vasif Əsgərov və Harun Haxverdiyev ifa ediblər. Tamaşadan sonra çıxış edən RMİ-nin rəisi Şahin Şahbazov yaradıcı heyətə təşəkkürünü bildirib.

***

İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Qara Yanvarın ildönümü münasibətilə anım tədbiri keçirilib. Əvvəlcə İsmayıllı şəhərindəki Şəhidlər xiyabanı ziyarət olunub, məzarların önünə gül dəstələri düzülüb. Mədəniyyət Mərkəzində davam edən tədbirdə bədii kompozisiya və Bakı Uşaq və Gənclər Teatrının hazırladığı "Vətən" tamaşası nümayiş olunub.

***

Mərkəzi Aran RMİ-nin tabeliyində fəaliyyət göstərən mədə-





niyyət müəssisələrində 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib. Şəhidlərin ailə üzvlərinin, qazilərin, rayon ictimaiyyətinin, məktəblərin, idarə, müəssisə və təşkilatların, mədəniyyət müəssisələrinin əməkdaşlarının iştirak etdiyi tədbirlərdə faciə qurbanlarının xatirələri yad edilib, kitablardan və rəsmlərdən ibarət sərgilər təşkil olunub. Tədbir iştirakçıları 20 Yanvar həqiqətlərini əks etdirən videoçarx, film və kompozisiyaları izləyiblər.

***

Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki müəssisələrdə 20 Yanvarın ildönümü münasibətilə silsilə tədbirlər təşkil olunub. Bildirilib ki, bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız 20 Yanvar faciəsi qurbanlarının o qanlı gecədə nümayiş etdirdiyi birliyi, sarsılmaz iradəni heç vaxt unutmayacaq.

Vətən yolunda, el yolunda şəhid olanlar heç vaxt unudulmurlar və onların xatirəsi nəsillər dəyişsə də, ürəklərdə əbədi yaşayacaq.

***

Füzuli rayon Böyük Bəhmənli kənd Mədəniyyət evində keçirilən anım tədbirində 20 Yanvar faciəsinin tarixindən və nəticələ-






rindən danışılıb. Tədbirin sonunda Mədəniyyət evində fəaliyyət göstərən dərnək üzvlərinin hazırladığı "Qanlı Yanvar gecəsi" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Ağcabədi şəhər Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzində 20 Yanvarın 34-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Çıxışlarda 1990-cı ilin yanvar hadisələrindən, faciənin baş vermə səbəblərindən söz açılıb. Sonra bu faciə ilə bağlı həqiqətləri əks etdirən videoçarx nümayiş olunub.

***

Tovuz rayon Abulbəyli kənd Folklor evində Tovuz Dövlət Rəsm Qalereyasında fəaliyyət göstərən rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət "Azadlığa gedən yolun əzabları" adlı rəsm sərgisi təşkil edilib.

Ağstafa rayon Mədəniyyət Mərkəzində "Azadlığın təməli" adlı tədbir keçirilib. Mədəniyyət işçilərinin iştirakı ilə gerçəkləşən tədbirdə qanlı Yanvar hadisələrini özündə əks etdirən kitab sərgisi nümayiş olunub. Tədbir yerli incəsənət nümayəndələrinin, eləcə də məktəblilərin təqdimatında şəhidlərə həsr olunan musiqilər və ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

***

Gəncə-Daşkəsən RMİ-nin tabeliyində fəaliyyət göstərən müəssisələrdə də 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran-Astara regional nümayəndəliyi ilə birgə "20 Yanvar həqiqətləri" adlı tədbir keçirilib. Əvvəlcə mərkəzin foyesində məktəblilərin mövzuya dair rəsm əsərlərindən ibarət sərgiyə baxış olub. Çıxışlardan sonra qəhrəman vətən övladlarının 34 il əvvəl göstərdikləri şücaətdən bəhs edən sənədli film göstərilib.

Lerik rayon Mədəniyyət Mərkəzində keçirilən anım tədbirində əvvəlcə Lənkəran Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Qabil Quliyev çıxış edərək tədbir iştirakçılarına 20 Yanvar faciəsi haqqında ətraflı məlumat verib. Daha sonra mərkəzin dəvəti ilə tədbirdə iştirak edən Lənkəran Dövlət Dram Teatrının kollektivi Emil Əskərovun "Azadlıq qatarı" adlı kompozisiyasını nümayiş etdirib.

Oqtay Kazımi adına Astara şəhər Uşaq musiqi məktəbində anım tədbiri keçirilib. Şagirdlərin ifasında şeirlər səsləndirilib, kompozisiyalar nümayiş etdirilib. Sonda tədbir iştirakçıları Astara Şəhidlər xiyabanını ziyarət ediblər.

Yardımlı Dövlət Rəsm Qalereyasında "Qanlı Yanvar" adlı tədbir təşkil edilib. Çıxışlarda 1990-cı il yanvarın 20-nə keçən gecə Bakıda baş verən qanlı hadisədən, xalqımızın milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəsindən danışılıb. Sonda tədbir iştirakçıları Qanlı Yanvara həsr olunmuş rəsm sərgisinə baxış keçiriblər.

**Hazırladı: N.Məmmədli**

## Gəncə Dövlət Filarmoniyasında solo konsertlər




Martın 18-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Caz axşamı" keçiriləcək.

Filarmoniyadan verilən xəbərə görə, bu səhnədə ilk dəfə tanınmış cazmen, Əməkdar artist Emil Əfrasiyab solo proqram təqdim edəcək.

Konsert caz-muğamın yaradıcısı, dünyaşöhrətli pianoçu, bəstəkar Vaqif Mustafazadənin (1940–1979) anadan olmasının 84-cü ildönümünə ithaf olunub.

***

Gəncə Dövlət Filarmoniyası musiqisevərlərə daha bir solo proqram hazırlayır.

Aprelin 21-də burada Xalq artisti, vokal ustası Azər Zeynalovun "Gəncəyə gəlirəm" adlı konserti keçiriləcək. Azər Zeynalov da Gəncədə ilk dəfə solo proqramla çıxış edəcək.

## Şəkinin Orta əsrlər tarixinə dair nəşrin təqdimatı

Yanvarın 19-da Şəki Heydər Əliyev Mərkəzində "Şəkinin Orta əsrlər tarixi" (Tağı Musəvinin tədqiqatları üzrə) adlı kitabın təqdimat mərasimi keçirilib.



Kitabı Azərbaycan Dövlət Pedaqoji Universiteti Şəki filialının müəllimi, AMEA Şəki Regional Elmi Mərkəzi Tarix, arxeologiya və epiqrafika şöbəsinin müdiri Rahim Həsənov və M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı Aydın Məmmədov birlikdə tərtib ediblər.

Təqdimatda Milli Məclisin deputatı Vüqar İsgəndərov, Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Elman İmamverdiyev, AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru Yusif Şükürlü, M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin direktoru Aqaəli Cəlilov, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda Tağı Musəvinin Azərbaycanın Orta əsrlər tarixinin öyrənilməsi işində rolundan söz açılıb, kitabın Şəkinin Orta əsrlər tarixinin öyrənilməsi sahəsində xüsusi əhəmiyyətini vurğulayıblar.

Sonda kitabın tərtibçiləri Rahim Həsənov və Aydın Məmmədov Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı yerli komitəsinin fəxri fərmanı ilə təltif olunublar.

## Bölgələrdəki kuklaçıların yaradıcılıq planları

Qax Dövlət Kukla Teatrının 2024-cü il üzrə yaradıcılıq planına nəzər saldıqda fərqlilik diqqəti cəlb edir.

İlk rübdə qaxlı kuklaçılar "Güllü və Güloğlan" (E.Çernyak, E.Gilodi) əsərinə müraciət ediblər. Nağıl-tamaşaya teatrın baş rejissoru Əməkdar artist Yusif Abdurahmanov quruluş verəcək. Səhnə işinin quruluşçu rəssamı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Novruz bayramı günlərində isə kollektiv Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" adlı hekayətini səhnəyə çıxaracaqlar. Tamaşaya teatrın aparıcı səhnə ustası Araz Mehrablı quruluş verəcək, səhnə tərtibatçısı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyev olacaq.

Bundan əlavə, dövlət sifarişi ilə Karlo Kollodinin məşhur "Pinokkionun macəraları" əsəri əsasında (tərcümə Çingiz Ələsgərli) tamaşa (quruluşçu rejissoru Y.Abdurahmanov, rəssam F.Səbrili, musiqi tərtibatçısı N.Fətəliyev) hazırlanacaq.






Vladimir Orlovun artıq klassikləşən "Qızıl cücə"si də Qax kuklaçılarının diqqətini cəlb edib. Əsərə sırf kukla oyunu ilə yozumu A.Mehrablı verəcək.

***

Salyan Dövlət Kukla Teatrının da cari il üzrə rəngarəng tamaşa planı var. İl ərzində dörd yeni tamaşanın hazırlanması nəzərdə tutulub.

Bunlardan ilki artıq məşqləri başlanan "Qaranlığı qovanlar"dır. Firuz Mustafanın pyesinə teatrın baş rejissoru Rafiq Mirzə quruluş verir. Vətənpərvərlik ruhlu əsərdə hadisələr Qarabağda baş verir. Qəhrəmanlıq mövzusunun ana xətt kimi keçdiyi nümunədə müharibənin uşaqların da həyatına təsir etdiyi xüsusi vurğulanır.

Özbək dramaturq Abbas Xurramovun "Xoruz niyə uçmur?" sualına da elə özbək quruluşçu cavab tapacaq. Özbəkistanın Sırxandərya vilayəti Kuğurcaq Dövlət Teatrının baş rejissoru Bunyod İmomovun quruluş verəcəyi bu tamaşa martın ortalarına hazır olacaq.

Mirmehdi Seyidzadənin məşhur "Cırtdan"ı da bu dəfə Salyan səhnəsinə çıxacaq. Əsərə Əməkdar artist, Estoniyada fəaliyyət göstərən "Avşar" Kukla Teatrının yaradıcısı Rauf Avşarov quruluş verəcək.

Balacalara klassik musiqili əsərlərimizi də təbliğ etmək istəyən yaradıcı heyət ilin sonuna Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının da kukla tamaşasını hazırlamağı planlaşdırır. Səhnə işini Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova təqdim edəcək.

## Füzuli şəhərində 440 ailə məskunlaşıb

Füzuli şəhəri doğma sakinlərini qarşılamaqda davam edir. Yanvarın 18-də yeni ilin ilk köç prosesi həyata keçirilib. Bakı şəhərinin Qaradağ rayonundan yola salınan ailələr yenidən qurulan Füzuli şəhərinə çatıblar. Həmin gün 30 ailə (127 nəfər) doğma yurduna qovuşub.



Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Yeni köçən ailələr daha öncədən Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək doğma yurdlarına qayıdışın sevincini paylaşıblar.

***

Füzuli sakinlərinin növbəti köçü yanvarın 22-də gerçəkləşib. Bu dəfə də 30 ailə (106 nəfər) doğma yurduna qovuşub.

Ailələr qarşılandıqdan sonra keçirilən açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Bununla da Füzuli şəhərində ümumilikdə 440 ailənin (1625 nəfər) daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

## Xudafərin qəsəbəsində tikinti işləri başlanıb

Cəbrayıl rayonunun yenidən salınan Xudafərin qəsəbəsində tikinti işlərinə başlanılıb. Tikinti işlərində "dayanıqlı kənd", "yaşıl enerji" və "dayanıqlı nəqliyyat" yanaşmaları əsas götürülüb.

Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətindən bildirilib. Xidmət qəsəbənin konseptual layihəsi ilə bağlı fotoları da təqdim edib.

Qeyd edək ki, Xudafərin qəsəbəsinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Qəsəbə tarixi Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır.

Layihələndirilən ümumi ərazi 25 hektardır. Baş plana əsasən, burada 149 ev tikiləcək. Birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Fərdi evlər iki, üç, dörd və beş otaqdan ibarət olacaq. Qəsəbədə məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət, ictimai iaşə müəssisələri və s.), mədəniyyət evi, karvansara-hotel və icma evi də yaradılacaq. Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında da parkın salınması da nəzərdə tutulub.

# Türk dünyasının ortaq folklor qəhrəmanı Molla Nəsrəddin haqqında film çəkiləcək

## Filmə kinorejissor Vaqif Mustafayev quruluş verəcək

TÜRKSOY Daimi Şurasının 2023-cü ilin oktyabrında Şuşa şəhərində keçirilən 40-cı iclasında alınan qərara əsasən, Türk dünyasının ortaq folklor qəhrəmanı Molla Nəsrəddin (Nəsrəddin Xoca) haqqında bədii film çəkiləcək.



Təşkilata üzv ölkələrin mədəniyyət nazirlikləri və TÜRKSOY-un dəstəyi ilə ərsəyə gələcək ekran əsərinə Azərbaycanın Xalq artisti, kinorejissor Vaqif Mustafayev quruluş verəcək.

Filmin çəkilişinə hazırlıq çərçivəsində Vaqif Mustafayevin rəhbərliyi altında ölkəmizdən nümayəndə heyəti bu günlərdə Türkiyəyə səfər edib. Ankarada, TÜRKSOY-un iqamətgahında təşkilatın baş katibinin müavini Sayit Yusufla görüş keçirilib. Film layihəsinin həyata keçirilməsi istiqamətində görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Vaqif Mustafayev bildirib ki, çəkiliş qrupu Qazaxıstan, Qırğızıstan və Özbəkistanda filmin lentə alınacağı yerləri müəyyən etmək üçün araşdırmalar aparıb və bu ölkələrdə müvafiq görüşlər keçirib.

Rejissor həmçinin Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino Baş İdarəsinin rəsmiləri ilə də söhbətlər aparıldığını diqqətə çatdırıb, qardaş ölkənin iki bölgəsində – Ağşəhər və Əskişəhərdə çəkilişlərin aparılacağı yerlərin müəyyən ediləcəyini deyib, bu prosesə verdiyi dəstəyə görə TÜRKSOY-a təşəkkür edib.

Türkiyədən sonra Türkmənistanda da bu istiqamətdə araşdırmaların aparılacağını deyən rejissor ilkin təhlil mərhələsinin may ayına qədər tamamlanacağını və çəkilişlərə bu ilin ikinci yarısında başlanacağını bildirib.

Sayit Yusuf Türk dünyasının məşhur kino sənətçilərinin iştirakı ilə həyata keçiriləcək layihənin qardaş xalqların ortaq mədəni irsini bir arada yaşatmaq və çəkiləcək filmlə dünyaya tanıtmaq üçün əhəmiyyətini vurğulayıb. O, başda rejissor Vaqif Mustafayev olmaqla çəkiliş qrupuna uğurlar arzulayıb.

Görüşdən sonra nümayəndə heyəti TÜRKSOY-un binası ilə tanış olub, qonaqlara qurumun fəaliyyəti haqqında məlumat verilib.

# "Uşaqlar üçün incəsənət tarixi" davam edir

Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə ərsəyə gətirilən "Uşaqlar üçün incəsənət tarixi" adlı layihə davam edir.

Layihənin ikinci proqramı dünyanın ən zəngin sivilizasiyalarından olan qədim Misirə həsr olunub.

Proqramda misirlilərin mifoloji dünyagörüşü, təsviri sənətdə mövcud olan kanonlar, Sfinks heykəli, piramidalardan, fironların məbədlərindən bəhs edən mühazirə keçirilib. Daha sonra ustad dərslərində papirusun hazırlanma üsulu və üzərində piktoqrafik yazıların işlənmə qaydaları öyrədilib. Maarifləndirici viktorina, əyləncəli kvest oyunu uşaqların həftəsonu proqramını daha da yaddaqalan edib.

Qeyd edək ki, "Uşaqlar üçün incəsənət tarixi" layihəsi hər həftənin şənbə və bazar günləri keçirilir.

# Qəhrəmanlıq tariximizi yaşadan əsərlər

Azərbaycan Milli İncəsənət Muzeyində "20 Yanvar – qəhrəmanlıq tariximizi yaşadan əsərlər" adlı tədbir keçirilib.



Muzeyin kinozalında "Silahdaşlar" (ssenari müəllifi Ramiz Fətəliyev, quruluşçu rejissoru Nizami Abbas) adlı sənədli film nümayiş olunub. 2019-cu ildə "Salnaməfilm" studiyasında lentə alınan film 1990-cı ilin 20 yanvar hadisələrini lentə alan kino işçilərinin fədakarlığından bəhs edir.

Filmin nümayişindən sonra muzeyin direktoru Şirin Məlikova çıxış edərək xalqımızın azadlıq uğrunda apardığı mübarizə yolunda çox şərəfli yer tutan 20 Yanvar hadisəsinin tarixi əhəmiyyətindən danışıb.

Daha sonra Əməkdar rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Məmmədhüseyn Hüseynov müəllifi olduğu "20 Yanvar hiyləsi" adlı əsəri haqqında məlumat verib, tədbir iştirakçılarının suallarını cavablandırıb. Milli İncəsənət Muzeyinin kolleksiyasında saxlanılan əsərdə Sovet qoşunlarının xalqımıza qarşı törətdiyi qətliam simvolik şəkildə ifadə edilir.



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində (MİM) 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə bağlı anım tədbiri keçirilib.

# Mərkəzi İncəsənət Məktəbində xatirə axşamı

Məktəbin Nəzəriyyə şöbəsinin müəllimi, musiqişünas Leyla Həsənova çıxış edərək 1990-cı ilin 20 yanvarında Bakıda törədilən qırğın haqqında videoçarxlar və slaydlar vasitəsilə məlumat verib. Faciənin şahidlərindən alınan müsahibələrdən ibarət videokadrlar nümayiş etdirilib.

Məktəbin müəllimləri Nəbi Quliyev (tar) və Azad Rzayev (gitara) "Rekviyem", Elnur Məmmədov (tar) "Fəryad" filmindən saundtrek, Samir Əsədli (tar) isə "Laylay" əsərlərini ifa ediblər.

Həmçinin şagird və müəllimlərin birgə ifasında "Hüzn valsı", "Ana, mən şəhid oldum" və s. əsərlər səsləndirilib.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının aparıcısı, qiraətçi Hüseynağa Aslanov Xalq şairi Ramiz Rövşənin "Qapı" şeirini qiraət edib.

Tədbirdə məktəbin Xoreoqrafiya və rəssamlıq şöbəsinin rəsm ixtisası üzrə müəllimi Nigar Şıxəliyevanın şagirdləri tərəfindən ərsəyə gətirilən rəsmlər də nümayiş etdirilib.

# Gənclər səhnəsində premyeralar: "Uçqun" və "Ezop"

Sumqayıt Dövlət Dram Teatrında növbəti premyeralar olacaq. Kollektiv yanvarın son həftəsində Əməkdar mədəniyyət işçisi Vasif Məmmədovun yozumunda hazırlanan "Uçqun" (T.Cücenoğlu) və Əməkdar artist Namis Şirməmmədovun hazırladığı "Ezop" (G.Fiqeyredo) tamaşaları ilə sənətsevərlərin görüşünə gələcək.



Sənət ocağında daha bir tamaşanın məşqləri başlanıb. G.Xuqayevin "Varlı ev" əsərinə teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov quruluş verir.

Baş rejissor Çingiz Aytmatovun "Dəniz kənarı ilə qaçan alabaş" əsərini də səhnələşdirəcək.

Teatrın cari il üçün yaradıcılıq planında Xalq yazıçısı Anarın "Şəhərin yay günləri" əsəri də var. Əsərə Namis Şirməmmədov quruluş verəcək.

Yaradıcı kollektiv balaca tamaşaçıları da unutmur. Rejissor Fuad Kazımovun yozumunda "Siçanlar pendiri çox sevir" (D.Urban) və Əməkdar mədəniyyət işçisi Vasif Məmmədovun quruluşunda "Sehrin gücü" (Ş.Perro) əsərləri səhnəyə çıxacaq.

# "80 yaş mənə bir qədər qəribə gəlir..."

Bu yaş mənə bir qədər qəribə gəlir. Həyatımda bir çox keşməkeşlər olub. Hər halda görünür ki, bu qədər ömür sürməkdə də Allahın bir hikməti varmış...

Yanvarın 22-də 80 yaşı tamam olan Xalq artisti, görkəmli teatr və kino aktyoru Hacı İsmayılov AZƏRTAC-a müsahibəsində belə deyib.

Onun sözlərinə görə, yaş anlamı sənətin növündən asılı olaraq dəyişir, yazıçı, rəssam və aktyor üçün isə yaş əhəmiyyət kəsb etmir.

*"...Uşaqlığım İçərişəhərdə keçib. O zamanlar uşaqlarla oynayarkən qala divarlarının üstündə qaçırdıq. İndi hər dəfə oradan keçəndə fikirləşirəm ki, mən o vaxt bunu necə bacarmışam. Bir az böyüdükdən sonra "O olmasın, bu olsun", "Amfibiya adam" filmlərinin İçərişəhərdə aparılan çəkilişlərinin canlı şahidi olmuşam. Kinoya marağım da elə həmin dövrdən başlayıb...".*

Sənətkar deyir ki, teatra həvəsi də məktəbdə oxuyanda yaranıb. İbtidai sinifdə oxuyanda Tofiq İsmayılovun (sonralar görkəmli kinorejissor, Xalq artisti – red.) rəhbərlik etdiyi yaradıcılıq dərnəyinə üzv yazılıb: "İlk dəfə səhnəyə "Gənc ustalar" adlı birpərdəli pyesdə Mahmud obrazı ilə çıxmışam. Tamaşa günü zal məni tutdu, özümü itirdim. Mətndəki sözlərin yerini qarışdırdım. Səhnə dostlarımın da hamısının baxışları mənə dikilmişdi, özümü ələ alıb toparladım və davam elədim. O gün maraqlı iş ortaya çıxmışdı. Qarşıma məqsəd qoydum ki, nə olursa-olsun, aktyor olacağam. İllər keçdi və yolum Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsinə düşdü...".

Azərbaycan kinosuna da yaddaqalan obrazlar qalereyası bəxş edən Hacı İsmayılov film çəkmək fikrinə isə heç vaxt düşməyib: "Mən heç vaxt bu barədə düşünməmişəm. Hər sənət sahəsinin özünəməxsus çətinlikləri var. Rejissorluq da belədir. Məncə, hər kəs öz işini ustalıqla görsə, sənət daha da gözəlləşər...".

Yaratdığı rollara gəlincə isə: "Hamı istəyər ki, səhnədə qəhrəman rolları oynasın. Həyat elə gətirib ki, mən tamam başqa obrazları canlandırmışam. Çox sevinirəm ki, öz rolumu tapdım. O da "Ad günü" filmindəki Mustafa obrazı idi. Belə rollar mənim daxili aləmim və xarakterimə daha uyğundur".

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədri vəzifəsini müvəqqəti icra edən Hacı İsmayılov buraya gəlişindən də söz açıb: "Bu il mənim Teatr Xadimləri İttifaqında çalışmağa başlamağımın 10 ili tamam olur. O vaxt Xalq artisti Azərpaşa Nemətov (ATXİ-nin sədri – red.) məni dəvət eləyəndə çox tərəddüd keçirdim.



İndi öz-özümə deyirəm ki, yaxşı ki, qəbul etmişəm. Ötən illər ərzində bir çox layihələr həyata keçirilib. Sonuncu dəfə "Qonaq teatr" layihəsi çərçivəsində Ağdam, Mingəçevir, Sumqayıt və Şəki teatrları bizim səhnəmizdə maraqlı tamaşalarla çıxış etdilər. Eyni zamanda hər il yubileyləri olan sənətkarlara fəxri diplomlar və xanımlara xüsusi hazırlanmış "qızıl gül" mükafatı təqdim edirik. Yeri gəlmişkən, bu mükafatın verilməsi mənim ideyamdır. 2024-cü ildə də ittifaq yeni layihələrlə teatrsevərləri sevindirəcək".

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (94)

### 2000-ci il 10 dekabr

Prezident Heydər Əliyev Teleteatrda "Uşaqların beynəlxalq televiziya və radio günü" münasibətilə keçirilən şənlikdə nitq söyləyib.

*"...Çox şadam ki, hər il sizinlə görüşmək, istedadlarınızı gözlərimlə görmək mənə nəsib olur... Bu gün hamımız bir daha şahidi oluruq ki, Azərbaycan uşaqları nə qədər istedadlı, bilikli və nə qədər xalqımızı, millətimizi – bizləri sevindirməyə qadirdirlər və sevindirirlər... Bu istedad incəsənətdir, mədəniyyətdir, musiqidir...*

*...Azərbaycan xalqı XX əsrdə çox böyük inkişaf yolu keçibdir. Elm, mədəniyyət, incəsənət sahələrində və digər sahələrdə dünyaya çox dəyərli töhfələr veribdir... Amma XX əsrin çox hissəsini görmüş və bütün bu proseslərin Azərbaycanda fəal iştirakçısı olan bir adam kimi mən artıq irəliyə baxıram: XXI əsrdə Azərbaycan nə cür olacaq? Mən buna çox nikbinliklə, sevinc hissi ilə baxıram. Birincisi, ona görə ki, Azərbaycan XXI əsrə, üçüncü minilliyə müstəqil dövlət kimi daxil olur. İkincisi, ona görə ki, XX əsrdə, xüsusən XX əsrin sonunda dünyaya gəlmiş uşaqlar – sizlər, bizim gənclərimiz bizlərdən daha istedadlısınız, dünya mədəniyyətini, elmini qavramağa, mənimsəməyə daha qabiliyyətlisiniz...".*

### 2000-ci il 18 dekabr

Respublika Sarayında IV Beynəlxalq "Şərq-Qərb" Bakı Kinofestivalının açılışında iştirak edib. Azərbaycan Prezidentinə Rusiya Kinematoqrafiya Sənəti Akademiyasının "Nika" mükafatı təqdim edilib.

Mərasimdə Heydər Əliyevin festival iştirakçılarına təbriki, 2 avqust tarixinin (2 avqust 1898-ci ildə Bakıda kinosüjetlərin ilk nümayişi – red.) Azərbaycan Kinosu Günü elan olunması haqqında sərəncamı və bir qrup kino xadiminə fəxri adların (o cümlədən, Xalq artisti fəxri adı: Hacı İsmayılov, Muxtar Maniyev, Oqtay Mirqasımov, Fəxrəddin Manafov) verilməsi haqqında fərmanı oxunub.

Mərasimdən sonra Heydər Əliyev festivalın iştirakçıları ilə çay süfrəsi arxasında söhbət edib.

*"...Azərbaycan Prezidenti olaraq, zamanın çətinliklərinə baxmayaraq, kinonu, xüsusən, "Şərq-Qərb" kinofestivalı kimi belə gözəl təşəbbüsü hər vasitə ilə dəstəkləməyə çalışıram. Burada, şübhəsiz, onun adının özü məzmundan xəbər verir... Şərq-Qərb ona görə xüsusi əhəmiyyət kəsb edir ki, Şərqin qədim sivilizasiyası və Qərbin çox böyük mədəni və mənəvi dəyərləri indi daha artıq sintezləşir, yəni daha çox birləşir və şübhəsiz, bu, öz nəticələrini verəcəkdir...*

*Bu, siyasi baxımdan Böyük İpək Yolunun bərpasıdır... Bütün bunlar isə mücərrəd ola və mədəni dəyərlərdən, əxlaqi dəyərlərdən, mənəvi dəyərlərdən ayrıla bilməz. Ona görə də bu festival bəlkə təsadüfən, bəlkə də təsadüfi olmayaraq düşünülmüşdür, deyə bilmərəm, hər halda yaxşı düşünülmüşdür...*

*Düşünürəm ki, bu festival, əvvəla öz əhatə dairəsini daha da genişləndirəcək, ikincisi isə, getdikcə daha çox kinematoqrafçıları və iştirakçı ölkələri cəlb edəcəkdir. Hələlik ən çox MDB ölkələrinin nümayəndələri toplaşırlar. Odur ki, siz MDB-nin hüdudlarından çox-çox kənara çıxmalısınız. Buna isə imkan var...".*

### 2000-ci il 30 dekabr

Respublika Sarayında uşaqların Yeni il şənliyində iştirak edib.

ŞHK arasında XX əsrin çempionu adına layiq görülmüş "Bakılı oğlanlar" komandasının üzvlərini Prezident Sarayında qəbul edib.

*"...Mən sizi səhnədə həmişə görürəm. Amma bu gün ilk dəfədir ki, sizinlə bu şəraitdə görüşürəm. Bunun da səbəbi ondan ibarətdir ki, siz öz yaradıcı fəaliyyətinizlə böyük nailiyyətlər əldə etmisiniz...*

*Son illər sizin yaradıcılıq fəaliyyətinizin ikinci bir tərəfi də meydana çıxıbdır... Bəlkə də kimsə sizin tamaşalarda, sadəcə, gülməli epizodlara baxır, gülür və istirahət edir. Amma mən hesab edirəm ki, sizin tamaşalarınızın hər birinin özünəməxsus qiyməti var və yumor, satira janrı kimi, yenə də deyirəm, cəmiyyətimizdə olan nöqsanların aradan qaldırılmasına xidmət edir...*

*Təbiidir ki, bizim Musiqili Komediya Teatrımız var, yaxud da ki, dram teatrlarında satira, yumor səhnələri göstərilir. Siz bu sahədə çox yaxşı səviyyəyə çatmısınız... Biz ölkəmizdə, cəmiyyətimizdə olan nöqsanları aşkar edib, onlarla mübarizə aparmalıyıq. Mübarizənin müxtəlif yolları vardır... Ancaq insanların çoxu sizin satira və yumorunuzu dinləyəndə, göstərdiyiniz müxtəlif səhnələri görəndə düşünməlidirlər...".*

### 2001-ci il 16 yanvar

TÜRKSOY ölkələri mədəniyyət nazirlərinin XV toplantısının iştirakçılarını qəbul edib.

*"...TÜRKSOY barədə çox danışmışıq. Ancaq bu gün mən onu deyə bilərəm ki, Türkdilli Dövlətlər Birliyi yaranandan indiyə qədər TÜRKSOY təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır... Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bu irsi nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik sovet cəmiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır... Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz.*

*...Siz türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin - bunların böyük tarixi və dərin kökləri vardır...".*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№6 (2071)
24 yanvar 2024
www.medeniyyet.az

# Qarşısında aciz qalınmış...

## Dörd teatrdan keçən nisgilli sənət yolu haqqında söhbət

O söhbətdə şıltaq qız da vardı, istedadlı aktrisa da. Arabir yolum dərdli, yeganə övladını itirməyin ağrısı ilə qovrulan ana ilə də kəsişdi. Hıçqırtılar, göz yaşı içində deyilən sözlər yaddaşımı yaraladı. Sonra söhbət teatrdan, sənətdən düşəndə o, bülbül kimi cəh-cəh vuraraq rollarından, səhnədəki qəhrəmanlarından danışan məsum uşağa döndü. Məhz o an günəşin üzünü tutub, dolub-boşalan buludlar dağıldı, əvəzində göy qurşağı çıxdı və biz 60 illik ömrün 40 ilini səhnə-səhnə onunla "gəzdik"...

Müsahibim Şuşa Dövlət Musiqili Dram Teatrının aktrisası Xanirə İsgəndərovadır. Ağsu rayonunun Kəndoba kəndində, sadə bir ailədə dünyaya göz açıb. Atası qarmon ifaçısı kimi el şənliklərinə gedən qəhrəmanım 5 bacı, 3 qardaşdan ibarət böyük bir ailədə səhnə arzularını həyata keçirən yeganə insandır.

*– Ucqar kənddə doğulan qız niyə teatrı seçdi?*

– Özümü dərk edəndən teatrda olmuşam, ruhən bu dünyadan qopmuşam və özümü səhnədə tapmışam. Yadımdadır, uşaq idim, televiziyada teatr, sənət adamları ilə bağlı verilişləri, tamaşaları həvəslə seyr edirdim.

*– Bu həvəslə də evdən qaçmaq qərarına gəldiniz...*

– Onda artıq 20 yaşım vardı. Teatr həvəsim içimdə ölmürdü, əksinə, hər gün alovlanırdı. Günlərin bir günü bacıma və bibim qızına bu niyyətimi – yəni evdən qaçmaq barədə fikrimi dedim. Onlar məni bu fikirdən daşındırmağa çalışsalar da, alınmadı. Qaldılar kəsilə-kəsilə. Məndə bu sənətə olduqca böyük həvəs vardı və ölümü belə gözə almışdım.

*– Sənət dostlarınız sizə qaçaq qız, itkin gəlin də deyir arada. Mənə maraqlıdır ömründə nəinki başqa şəhər və rayona, heç doğulduğu kənddən rayon mərkəzinə belə təkbaşına getməyən qız hansı qurdun ürəyini yemişdi ki, Ağsudan Ağdama gedib çıxdı?*

– (Gülür) Bir gün yenə televizora baxırdım. Ağdam Dövlət Dram Teatrının baş rejissoru, sənət fədaisi, ustadım Məmmədkamal Kazımov çıxış edirdi. O, müsahibəsində dedi ki, Ağdam teatrında gənclərə ehtiyac var və həvəsi olanlar açdığımız studiyaya gələ bilərlər, biz onları yetişdirəcəyik. İnanın, elə bildim ki, dünya bir anda gözəlləşdi. Axı mən o günə qədər elə sanırdım ki, teatrda yalnız institutu qurtaranlar çalışa bilərlər. Məmmədkamal müəllimin bu sözləri, mehriban təbəssümü mənə qol-qanad verdi. Bu fikirlə durub yığışdım. Bacıma fikrimi deyəndə əl-ayağı əsməyə başladı. Mən isə artıq qərarımı vermişdim. Gecə gedib rəfiqəmgildə qaldım. Pul-param da yox. Rəfiqəm niyyətimi anasına deyəndə qadın daş atıb başını tutdu ki, yox, biz qonşular düşmən olacağıq, atan deyəcək ki, qızım sənin evindən qaçıb. Düşdüm qadının əl-ayağına ki, bəs eləmə, atam bilsə məni öldürər. Yəqin o elə zənn edir ki, mən kiməsə qoşulub qaçmışam. Yalvar-yaxardan sonra qadının ürəyi ağrıdı, insafa gəldi, hətta cibimə cüzi miqdarda pul da qoydu. Sübh tezdən kəndimizdən rayon mərkəzinə gedən avtobusa mindim. Təsəvvür edin ki, Ağsuya heç vaxt getməyən adamam. Amma siz demiş, qurd ürəyi yemişəm də, nə olar, olar.

Rayon mərkəzinə çatdım. Avtobusların qarşısına yüyürürəm, tutuquşu kimi eyni sualı verirəm: "Ay əmi, siz Ağadama gedirsiz?". Sən demə, Ağdama gedən avtobus yoxuymuş. Mən də bilmirəm. Həyəcanla ətrafıma baxıram ki, bu saat atam gəlib, məni aparacaq. Bu zaman ortayaşlı bir kişi "Mən Gəncəyə gedirəm, amma Bərdədən keçəcəm. Ağdama yaxın yerdə səni düşürərəm" dedi. Düzü, bir az qorxdum. Məni arxayın elədikdən sonra avtobusa mindim. 3 manat pul ilə gəlib çıxdım Ağdama, oradan da soraqlayıb çatdım teatra. Artıq gün batırdı. İş gününün sonu idi. Özümü yetirib əhvalatı danışanda ətrafıma yığılan teatr əməkdaşları heyrətə gəldilər. Məmmədkamal müəllim "Ailənə xəbər verməliyik" dedi və yalvarsam da, valideynlərimə zəng elədi.

Həmin gecə teatrın süpürgəçisigildə yatdım. İndi danışanda tüklərim ürpəşir. Səhəri gün atam özünü yetirdi. Teatrdakılar hiss elədilər ki, vəziyyət yaxşı olmayacaq. Teatrın rəhbərliyi, xüsusən də Məmmədkamal müəllim nə qədər xahiş etsələr də, atam razılaşmadı və məni evə gətirdi. Düz bir ay döydülər ki, bir də teatr adı tutmayım. Qorxumdan nə getmirəm demirəm, nə də gedəcəm. Atam yazıq mənə öyüd verməkdən yoruldu. Gördü ki, yeyib-içmir, hər gün ağlayıram. Axırda bildi ki, mənimlə bacarmır, qapıdakı tək danamızı satıb pulunu mənə verdi. Gəldik Ağdam teatrına. Özü məni Məmmədkamal müəllimə təhvil verdi və hönkürtü ilə ağladı. Yəqin ona görə də mən nə sənətdə, nə də həyatda xoşbəxt ola bildim.

(O ağladı və söhbətimiz dayandı. Ona təsəlli verə bilmədim. Yaddaşımı silkələyib təsəlli ola biləcək sözləri sıralaya bilərdim. Amma özüm dinmədim. Çünki hər kəs ona əzab verən gerçəkliklə üzləşəndə daha güclü olur. Bir qədər ara verəndən sonra söhbətə sənətlə davam elədim. Bilirdim, yenə ayın qabağı açılacaq. Elə də oldu).

*– Ağdam teatrına yeni nəfəs kimi gəldiniz, deyilmi?*

– Ağdam teatrı mənə doğma ev, isti qucaq oldu. 80 manat maaşla aktrisa kimi işə götürüldüm.



Hər ay 45 manatını kirayə verib, qalan pul ilə xoşbəxt yaşayırdım. Yeni rollar, yeni sənət dostları və uğurlar qazandım. Rayonda tanındım, sevildim. Beləcə, beş il o ailədə isti ocaq tapdım. Teatra gələn gündən yaxşı rollarım oldu. Yadımda qalanları sayım: "Fərhad və Şirin"də Şirin, "Oqtay Eloğlu"nda Firəngiz, "Qismət"də Marta, "Vicdanla üz-üzə"də Nina kimi maraqlı rollar oynadım.

*– Yeni yaxşı bir yaradıcılıq yolu keçdiniz...*

– Amma yenə də mənə elə gəlir ki, çox oynamadım. Bu dünyada mənim yeganə yanğım səhnə, yeganə aclığım rollarımadır. Elə bilirəm ki, az oynamışam. Gözəl gənclik, hər obrazın başqa bir enerjisi, fədakar sənət adamları ilə bir səhnədə olmaq... İnsan necə qəribə canlıdır. Bu gün artıq 60-ı adlamışam, səhnədə də uzun bir ömür yaşamışam. Amma yenə də deyirəm ki, filan rolumda filan cür oynamışam, kaş onu yenə oynaya biləydim. Əslində, yaşadıqlarım məni həyatdan doydurub, amma səhnədən yox. Çünki tək enerjim, sevgim, təsəllim rollarım, bax o səhnədir. Nə qədər oynasam da, elə bilirəm ki, yenə yarımçıq, yenə azdır. Yəqin ki bilirsiniz, mən həm də Yazıçılar Birliyinin üzvüyəm, 5-6 kitabım var. Onlardan birində də sırf pyeslərim toplanıb. "Xalidənin taleyi" pyesim Mingəçevirdə, "Qulammirzə və Bibixanım" adlı əsərim Ağdam teatrında səhnəyə qoyuldu. Yəni aktrisa kimi də, müəllif kimi də sənət eşqim ölmür ki, ölmür.

Arada təqaüd yaşımı, səhnədən gedəcəyimi təsəvvür edəndə az qalır başıma hava gəlsin. Öz-özümə "Xanirə, sən səhnədən gedən günü öləcəksən ha" deyirəm. Məni səhnədən ölüm ayırar yalnız. Nə bilim, bu da bir tale, yazıdır da. Çünki bu sənətə gəldinsə, çətin ondan ayrılasan. Üzünüzə ki qrim dəydi ha, bax, ondan sonra sənəti atmaq çətindir. Düzdür, söhbət həqiqi sənət fədailərindən gedir.

*– Müharibə, qan-qadalı illər və sizi Ağdam teatrından perik salan didərginlik...*

– Yer-yurdumdan didərgin düşdüm, sonra Qazax teatrının dəvəti ilə bir neçə gənc oraya getdik. B.Vahabzadənin "Dar ağacı" əsərində Çılğın obrazı ilə qısa zamanda rayonda tanındım. "İntizar"da Gülyaz, "Ulduzdan gələn adam"da 6 qadın rolunu eyni zamanda oynadım. Eh, xeyli rollarım oldu. Bundan başqa, dövlət tədbirlərinə, cəbhə bölgələrinə getdim, tamaşalar göstərdik. Elə taleyimdə dəyişiklik də Qazax teatrında oldu. İş yoldaşımla evləndim, oğlumuz oldu. Kasıb, maddi və mənəvi sıxıntılar girdabında çabalasam da, xoşbəxt idim. Övladım, ailəm, işim, sevimli rollarım vardı. Tale mənə bunu da çox gördü. 90-cı illərin çətinliyində yoldaşım məni tərk elədi, Rusiyaya getdi və dönmədi. Biz ana-bala baş-başa verib yaşayırdıq. Ta o amansız qəzaya qədər. 7 yaşı vardı Röya balamın. Məktəbdən qayıdarkən maşın vurdu və... O günü heç vaxt unutmuram. Növbəti tamaşalardan birinin məşqində idim. Səhnə arxasında edilən söhbət qulağımı daladı. Dedilər "Röya adlı bir qızı maşın vurub". Ürəyim ağzımdan çıxdı sandım. O an hiss etdim ki, bu qız yox, mənim oğlum Röyadır. Ona bu adı verəndə nə biləydim ki, ömürlük röyalarıma köçəcək...

(Söhbətin bu məqamında Şuşa teatrının foyesində hər tamaşa öncəsi verilən mini konsert başladı və muğam üçlüyünün ifasında "Könlüm düşdü diyar-diyar" səsləndi və biz ikimiz də kiridik. Ta nəğmə bitənə qədər. Foyedəki alqış, bunun ardınca ifa olunan növbəti şux ifa eşidilməz oldu).

Oğluma da bir poema yazdım, ağrılarımı dilə gətirdim. Həyatdır da. Mən şəhidlərimizin ağrılarını da şeirə, dastana çevirdim, yanğımı, vətən və vətənsevərlərə sevgimi həm də poetik dildə ifadəyə çalışdım. Beləcə, özümü, ruhumu, qırıq könlümü aldada-aldada, oxşaya-oxşaya yaşadım.

*– Xanirə xanım, yəqin buna görə dramatik rollar sizin ifanızda daha təsirli alınır.*

– Hə, tale mənə bunu yaraşdırdı. Qoy yadımdaykən deyim. Dünya başıma uçmuşdu, Röyam qeybə çəkilmişdi. Heç kim, heç nə mənə təsəlli ola bilmirdi. Öz-özümə yad olmuşdum. Amma yenə də səhnə məni həyata qaytardı. Puç həyatıma işığı yenə səhnə saldı. Amma Qazaxda qərar tuta bilmədim və rəfiqəmin təklifi ilə Gəncəyə gəldim. O vaxt Əməkdar incəsənət xadimi rəhmətlik Vaqif Şərifov Gəncə teatrının bədii rəhbəri idi. Məni xeyli danladı, "Səhnəyə, teatra qayıtmalısan" dedi və mən 1997-ci ildə Gəncə Dövlət Dram Teatrında işləməyə başladım. Həm tamaşalar, həm də dövlət tədbirlərində yenə ifalarım səs saldı. O teatr mənə arxa-dayaq, sevgi, təsəlli oldu. Yenidən ana olmaq, o sevinci yaşamaq üçün ailə qurdum. Amma övladım olmadı.



*– Şuşa Dövlət Musiqili Dram Teatrındakı yolunuz haradan başladı?*

– Teatrımızın direktoru, gözəl insan və sənət dostum Yadigar Muradovu hələ Ağdam teatrından tanıyırdım. Şuşa teatrına da 2009-cu ildə onun dəvəti ilə gəldim. Bu illər ərzində Şuşa səhnəsində bir çox tamaşalarda rollarım olub. Sadəcə, Mirzə Cəlilin "Anamın kitabı"nda Ana, Hüseyn Cavidin "Ana" dramında da Ana rolunu sadalayım, bəsdir.

*– Peşmanlıq hissi ilə indi necə yola "gedirsiniz"?*

– Pis, özü də çox pis. Ağrılı illərim ən ağır yüküm kimi belimə şəllənib. Oturub düşünürəm ki, bütün bunlara dəyərdimi?! Elə bilirsiniz asan olub? Yox, əsla. Amma əmin olun ki, qarşılaşdığım çətinliklər, rastıma çıxan pis adamlar, səhnədə, sənətdə aldığım zərbələrə rəğmən yenə də taleyimlə razılaşar, yenə də bu sənətə gələrdim.

*– Deməli, ürəyin atəşi, odu, doğrudan da, qocalmır?*

– Qocalsa, ölərik. Ürəyim istəyən rolları oynayıb, hər zaman səhnədə olsam da, bu natamamlıq, nisgil, rol yanğısı məni tərk etmir. İndi yaş-başım da o deyil. Amma enerji və bacarığımın imkan verdiyi o qədər rollar oynamaq istəmişəm ki. Sadəcə, yəqin rejissorlar bunu görməyib. Düzdür, dünənə baxanda narazılığım yoxdur. Amma yenə də bacarığımı, aktrisa kimi səhnə imkanlarımı, xüsusən bu yaşdakı oyun üslub və texnikamı açan o qədər də rol olmayıb. İstəyirəm ki, yenə içimdə qaynayan arzularımı səhnədə tapım. Bir az da çılğınlıq deyərdim buna. Amma aktrisanın işi həm də rejissorun verdiyi mizan və obrazın biçilmiş boyunda hərəkətdirsə, barışmalıyıq sadəcə...

*– Necə düşünürsüz, çalışdığınız dörd teatrdan hansında potensialınız daha çox üzə çıxarıldı?*

– Ağdam teatrında. Çünki bir aktyorun uğur hekayəsində onu zamanında kəşf edən rejissor amili çox vacibdir. Hər şey ondan asılıdır. Onun görüb, dəyərləndirmək bacarığı ayrı bir fitrətdir və mən bunu Ağdam teatrında daha çox görmüşəm.

*– Bir də rejissorların sevimli aktyoru amili var.*

– Mən də olmuşam. Ağdam, Gəncə və Qazax teatrlarında. Oralarda aktyor, aktrisa amili, rol bölgüsündə aktyorun potensialına uyğun yanaşma əsas idi. Yəni rejissor hər zaman baş rolu, qəhrəman rollarını eyni adama vermir, baxır, seçir, uyğun dəyərləndirmə edirdi.

*– Belə başa düşürəm ki, bu teatra gəldiyinizə görə peşmansınız.*

– Məhz rol bölgüsü məsələlərinə görə hə. Qalan hər şey qaydasındadır.

*– Deyəsən, hazırda "Dağılan tifaq" tamaşasında da oynayırsınız. Məşqləriniz hansı mərhələdədir?*

– Bəli, inşallah, bu tamaşa da maraqlı alınar, baxımlı olar.

*– Şuşa teatrı Şuşaya gedərsə...*

– Sevə-sevə gedərəm. Axı mənim sənət yolum Qarabağda başlayıb. Neynək, qoy elə Qarabağda da bitsin. Heç olmasa, bu arzum gerçəkləşsin...

Eh qızım, dinib-danışmağım yoxdur, indiyədək heç müsahibəm də olmayıb. Qoy, ürəyimi burada boşaldım. Bax, atam mənə xeyir-dua vermədi deyə, hamıdan geridə qaldım. Budur, 60 yaşımı keçmişəm. Nə bir mükafatım, fəxri adım, nə də bəxtəvər ailəm oldu. Bütün sevinclərim yarımçıq qaldı. İndi oturub tez-tez keşkələrlə baş-başa qalıram. Özümə verdiyim sualı bir də sizə verim: "Bu gün həyatda da, sənətdə də əlim boş, ümidlərim öləzimiş haldadır. Sizcə, bütün bu yaşadıqlarıma dəyərdi?

(Mən ona cavab verə bilmədim)...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Əməkdar artist Niftulla Əsgərov vəfat edib



Lənkəran Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Niftulla Əsgərov yanvarın 22-də, 65 yaşında vəfat edib.

Niftulla Fətulla oğlu Əsgərov 5 iyul 1959-cu ildə Lənkəran rayonunun Girdəni kəndində anadan olub. Bakı Kitabxanaçılıq Texnikumunun Mədəni-maarif şöbəsində özfəaliyyət dram kollektivinin rəhbəri kursunu bitirdikdən sonra təhsilini Rostov Pedaqoji İnstitutunda davam etdirib. 1986-cı ildən Lənkəran Mədəniyyət evinin direktoru vəzifəsində çalışıb.

1995-ci ildən Lənkəran Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib. Teatrda tamaşaya qoyulan S.M.Qənizadənin "Xor-xor" (Seyfulla), İ.Məlikzadənin "Gəl qohum olaq" (Camal), H.Abbaszadənin "Həzi Aslanov" (Bekişvilli), Ü.Hacıbəylinin "Olanlardan-keçənlərdən" (Atamoğlan əmi), N.Vəzirovun "Hacı Qənbər" (Qıdı kirvə), B.Nuşiçin "Nazirin xanımı" (Çeda), N.Nərimanovun "Nadir şah" (Əliəşrəf bəy) və s. əsərlərdə maraqlı obrazlar yaradıb.

Həmçinin filmlərdə ("Bayram axşamı", "Bığ əhvalatı", "Elçilik" və s.) və televiziya seriallarında çəkilib.

2018-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

Niftulla Əsgərov uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

Allah rəhmət eləsin.

***

Yanvarın 22-də Lənkəran Dövlət Dram Teatrında mərhumla vida mərasimi keçirilib. Niftulla Əsgərov Girdəni kənd qəbiristanlığında dəfn olunub.

# Şəkili kitabşünas və xəttat

XIX əsrdə yaşayıb-yaratmış görkəmli pedaqoq, kitabşünas və xəttat Əbdülqəni Nuxəvi ölkəmizdə kitabxana mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan şəxsiyyətlərdəndir. Əsərlərinin böyük bir hissəsi AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır.

Əbdülqəni Əfəndinin topladığı kitab və əlyazmaların hamısı günümüzə gəlib çatmayıb. Çünki 1920-ci ilin aprelində Azərbaycanın rus-bolşevik işğalı ilə maddi-mənəvi irsimizə qarşı da qəsd olunub. Ölkənin hər guşəsində ərəb qrafikalı kitab, jurnal və əlyazmalar talan edilib, sıradan çıxarılıb. Deyilənə görə, Əbdülqəni Nuxəvinin kitabxanasındakı kitablar da həmin dövrdə yandırılıb.

Əbdülqəni Məhəmməd oğlu Nuxəvi 1817-ci ildə Şəki şəhərində dünyaya göz açıb. İbtidai təhsilini molla məktəbində alır. Sonra mədrəsədə təhsilini davam etdirir. Ərəb, fars dillərini dərindən öyrənən Əbdülqəni ömrünü əlyazmaların öyrənilməsinə həsr edir. Sonradan türk, ərəb və farsdilli Şərq ədəbiyyatının tədqiqatçısı kimi tanınır. Xalqın maariflənməsi yolunda böyük səy göstərir. Minlərlə əlyazma və qədim çap kitablarını əhatə edən zəngin kitabxana yaradır.

Görkəmli kitabşünasın AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda iki mindən çox əlyazması saxlanılır. Əbul-Hüseyn Əhməd Məhəmməd əl-Qüdurinin




(972 – 1038) "Müxtəsər əl-Qüduri" əsərinin institutda mühafizə olunan 28 əlyazma nüsxəsindən üçünün azərbaycanlı katiblər tərəfindən üzü köçürüldüyü müəyyən edilib. Həmin katiblərdən biri Əbdülqəni Nuxəvidir. O, ərəb dilini mükəmməl bildiyi üçün bu dildə yazılan məntiq, fəlsəfə, dil, ədəbiyyat nəzəriyyəsi və başqa elm sahələrinə aid əsərlərdən səmərəli surətdə istifadə edə bilib.

Araşdırmalardan məlum olur ki, onun hazırladığı "Müxtəsər əl-Qüduri" əlyazması poleoqrafik xüsusiyyətlərinə və keyfiyyətinə görə o biri nüsxələrdən fərqlənir. Ərəb xətt nümunələrinə yaxından bələd olan katib bu əlyazmanı çox dəqiq və nəfis şəkildə işləyib.

Ə.Nuxəvi 40 illik elmi axtarışları nəticəsində Şərqin məşhur elm və mədəniyyət xadimlərinin əlyazma və əsərlərini toplayaraq üzünü köçürüb. Eyni zamanda bəzilərini müxtəlif mətnlər əsasında şərh edib. Mütəxəssislərin fikrincə, Azərbaycan kitab mədəniyyətinin əlyazma şəklində inkişaf etməsində Ə.Nuxəvinin xüsusi xidmətləri olub.

Mənbələrdə bu görkəmli kitabşünasla bağlı bəzi rəvayətlərin də yaradıldığı bildirilir. Bir rəvayətdə qeyd edilir ki, tanınmış fransız yazıçı Aleksandr Düma (ata) 1858 – 1859-cu illərdə Qafqaza səyahəti zamanı bir müddət Azərbaycanda da olur. Əyalətləri gəzərkən Şəki şəhərinə də gəlir. Burada məşhur xəttat Ə.Nuxəvi ilə görüşür. İlk görüşdən sonra o, Əbdülqəni Əfəndidən onun dillər əzbəri olan kitabxanasına baxmaq üçün icazə istəyir. O da razılıq verir. A.Düma kitabxana ilə tanış olur və elm ocağının zənginliyinə heyran qalır. Əbdülqəni Əfəndi qonağa kitabxanada toplanan Xaqani Şirvani, Nizami Gəncəvi, Şeyx Mahmud Şəbüstəri, Şah İsmayıl Xətai, Nəsirəddin Tusi, Abbasqulu ağa Bakıxanov, Əlişir Nəvai, Əbülqasım Firdovsi, Hafiz Şirazi, Cəlaləddin Rumi, Şəms Təbrizi, Sədi Şirazi, İbn Sina və digər görkəmli şair və yazıçıların əlyazma əsərləri haqqında məlumat verir... Görüşün sonunda A.Düma rəngarəng naxışlarla bəzədilən, gözəl miniatürləri olan bir neçə nəfis əlyazmanı gətirib stolun üstünə qoyur. Kitabları ona satmasını xahiş edir.

Əlyazmalar İnstitutu Ərəb əlyazmalarının tədqiqatı şöbəsinin müdiri filologiya elmləri doktoru Kamandar Şərifli araşdırmasında yazır ki, Ə.Nuxəvi əcnəbi yazıçının xahişini rədd edir. Bildirir ki, bu kitabxana xalqın elm ocağıdır. Buradan kitab satılmır. Əgər əsər yazmaq və ya elə-belə oxumaq istəyirsinizsə, buyurub istifadə edə bilərsiniz...

Düma kitabları pulla ala bilməyəcəyini başa düşür. Bir əlac tapmaq üçün Şəki tacirlərinə müraciət edir. Tacirlər öz adlarından Ə.Nuxəviyə təsdiqlənmiş rəsmi sənəd verirlər. Kitabların qaytarılması məsuliyyətini öz üzərlərinə götürürlər. Guya A.Düma kitabları oxuduqdan və istifadə etdikdən sonra sahibinə qaytaracaq... Bundan sonra Ə.Nuxəvi A.Dümaya istədikləri kitabları verir. Ancaq birinə qəti etiraz edir. Bu, yeganə nüsxə olan "Kitabi-Dədə Qorqud" dastanı idi.

Aradan bir müddət keçir, ancaq əcnəbi qonaqdan bir səs-soraq eşidilmir. Beləliklə, A.Düma vədinə əməl etmir. Apardığı kitabların heç birini geri qaytarmır...

"Farsca-Azərbaycanca danışıq" kitabçasının da müəllifi olan Əbdülqəni Nuxəvi 1879-cu ildə dünyasını dəyişib.

**Savalan Fərəcov**

# Cümhuriyyətin "Azərbaycan"ı – külliyyatın VIII cildi işıq üzü görüb

Məlum olduğu kimi, ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Xalq Cümhuriyyəti dövrü "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatının nəşri həyata keçirilir. 20 cilddə nəzərdə tutulan toplunun VIII cildi latın qrafikasında nəşr edilib. Səkkizinci cild 1919-cu ilin may ayını (170-191-ci nömrələri) əhatə edir.




Qəzetin topluya daxil edilmiş 1919-cu il 28 may tarixli nömrəsi diqqəti xüsusilə cəlb edir. Xalq Cümhuriyyətinin elan edilməsinin ildönümünə həsr edilmiş bayram nömrəsində bu tarixi hadisə münasibətilə keçiriləcək dövlət tədbirləri, mərasimləri haqqında məlumatlar yer alıb, 1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi" dərc olunub. Eyni zamanda bu nömrədə bayram ovqatını ifadə edən "İstiqlaliyyət", "Bir yaş", "Şərəfli bayram", "Nə böyük bayram", "Azərbaycan istiqlalı", "Böyük bir gün", "Türk şüarası və istiqlal" kimi bir-birindən maraqlı yazılar çap olunub. Həmin məqalələrdə Xalq Cümhuriyyətinin elan olunmasının sevincini, bu hadisənin gətirdiyi sonsuz qürur hisslərini və eyni zamanda Cümhuriyyətin gələcəyi ilə bağlı peşəkar analiz və təhlilləri özündə əks etdirən fikirlər yer alıb.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin orqanı olan "Azərbaycan" qəzetində rast gəlinən xəbərlər o dövrün hadisələrinə dair ilkin mənbələrdir. Məsələn, VIII cilddə "Ermənistanın vüsəti" (1919-cu il, 25 may, N 187) sərlövhəli yazıda oxuyuruq: "Yer üzündə cümlətanı 4-5 milyonluq olan erməni tayfası tarixlərdə əsli qaranlıq və indi süni bir tərzdə ixtira olunmuş "Haykakan" dövləti yolunda can, mal və qələm ilə çalışırlar, vuruşurlar. Mərama nail olmaq üçün heç bir şeyi müzayiqə etməyirlər (əsirgəməyirlər). Hətta bu yolda lazım görülərsə, böhtan, fitnə, haqqı batil [göstərmək] kimi ədalət və insaniyyətdən uzaq, qeyri-məşru (qanunsuz) şeylərdən də çəkinməzlər. Ermənilər hansı bir yerdə yaşayırlar yaşasınlar, hansı bir partiyada işləyirlər işləsinlər, yenə axır ki, məqsədləri "Hayastan"ın istiqbalıdır (gələcəyidir). Bunu qazanmaq üçün bir vaxt rus istibdadının ən sadiq bəndələrindən sayılaraq Loris-Məlikovlar imperator saraylarına qədər yaxınlaşdılar. Hətta zimamihökuməti (hökumətin cilovunu) ələ almaq məqsədinə cürətləndilər. Erməni hiyləsini anlamış imperatorun müqərrəbləri (yaxınları) dərhal Loris-Məlikovu kənar etdilər. Lakin ermənilər məyus olmayaraq Peterburq saraylarından Qafqaz canişini Vorontsov-Daşkov sarayına köçürlər. Erməni qadını vasitəsilə qoca və düşkün canişini ələ alıb onun icazəsi ilə daşnak partiyasını tərtib verirlər. Bundan sonra erməni "cürəti" bir dərəcəyə çatır ki, bir tərəfdən sərhədi keçib Türkiyə ermənilərini silahlandıraraq üsyana hazırlandırırlar, o biri tərəfdən də Qafqazda erməni mənafeyinə müxalifət göstərmiş rus qubernator və generallarını terror vasitəsilə qətlə yetirirlər. Gürcüstanda və Azərbaycanda bunlar törətdiyi əməllərə qarşı gürcülər və müsəlmanlar mat və mütəhəyyir [heyrətdə] qalmışdılar...".

Elə həmin nömrədə digər bir yazı – "Naxçıvan və Qarabağ" yazısı da bu günün oxucusuna erməni hiyləgərliyi və saxtakarlığını bütün çılpaqlığı ilə açıb göstərir: "Naxçıvan müsəlmanları Ararat hökumətinə tabe olmaq istəmədiyi kimi, Qarabağ ermənilərinin də Azərbaycan hökumətinə təbəəlik etmək istəməyirdilər və istəməyirlər. Naxçıvan müsəlmanlarının böylə rəftara haqları vardı. Çünki oraların müsəlmanları ədədcə ermənilərdən çox olub, yerlərinin böyük qismi də müsəlmanlara məxsusdur. Halbuki ədədcə müsəlmanlardan az və yer-yurdca müsəlmanlardan kasıb olan Qarabağ erməniləri bu iddialarında heç bir haqqa malik deyildirlər və əlavə, bu haqsız fikir və iddia bütün Qarabağ ermənilərinin arzusu olmayıb, bəlkə daşnak partiyasının fitnə və intriqası nəticəsidir. Halbuki Ermənistana tabe olmamaq təşəbbüsləri ümum Naxçıvan müsəlmanlarının öz arzuları idi. İngilislər bu məsələləri həll etmək istədilər. Məlum oldu ki, Naxçıvanı məhəlli [yerli] müsəlmanların haqlı arzusuna rəğmən Ermənistana və Qarabağı da daşnakların iddialarına xilaf olaraq Azərbaycana mütəəlliq etdirmək (bağlamaq) əsası ilə iş görmək fikrindədirlər. Bu fikri yeritmək üçün general Devini Ararata köməyə və miralay (polkovnik) Şattivortu da Azərbaycana mədədə məmur etdilər...".

Kitabı vərəqlədikcə oxucuda 1919-cu ilin siyasi hadisələri, ölkənin təhsil və mədəni həyatı haqqında geniş təsəvvür yaranır. Qəzetin bu cilddə toplanan nömrələrində o dövrdə Azərbaycanın, regionun və beynəlxalq aləmin gündəm mövzularına dair müxtəlif səpkili informasiyalar da yer alıb.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev kitaba ön sözdə yazır: "Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan hökumətinin qərarları, parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə, bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyətinin tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920-ci il tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir...".

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Nəşrin elmi redaktoru isə akademik Teymur Kərimlidir.

# Sənətdə sirli məna axtarışı

## Rəssam Cəlal Ağayevin yaradıcılığı haqqında



Kövrək ruhlu sənətkarların sirli məna axtarışı kətan üzərində simvollaşaraq, onların xəyal aləminin kölgəsi hesab olunur. Rəssamın palitrası qəlbindən süzülən rənglərlə riqqətə gələrək fırça ilə rəqs edir. Öz düşüncələrinin mahiyyətini çözələyən rəssam gah əski dəmlərə qayıdır, gah da gələcəyə işıq tutur.

Harmoniya ilə cilalanmış sənət nümunələrinin müəllifi Cəlal Ağayevin əsərlərindəki coşqu dolu rənglərdə də sanki bir təzad var. Bütün əsərlərində müəllifin ürəyinin saflığı, qəlbinin kövrəkliyi, eyni zamanda Abşerona böyük sevgisi görünür. Düşüncələrini kətan üzərində gah yağlı boya, gah da akvarel ilə ümumiləşdirən sənətkarın təpədən dırnağa duyğu və xəyal aləmini canlandırmağa çalışması əsərlərini daha dəyərli edir. Fərqli mövzulara, milli motivlərə, etno-tarixi elementlərə əsərlərində yer verən Cəlal Ağayev bədii təzadlardan və dekorativlikdən istifadə etməyi çox sevir. Onun bütün kompozisiyalarında həyati, sevgi dolu, sənət yüklü aura var.

Cəlal Ağayev 1983-cü il sentyabrın 13-də Bakıda anadan olub. Uşaq yaşlarından rəsmə, rəssamlığa maraq göstərib. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Kollecində və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında (ADRA) sənət təhsili alıb. 2010 – 2015-ci illərdə ADRA emalatxanasının (qrafika ixtisası) müdiri olub, 2015-ci ildən isə "Rəssamlıq və qrafika" kursunun müəllimidir. 2009-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Azərbaycanda və xaricdə keçirilən bir sıra sərgilərin iştirakçısıdır. Əsərləri Türkiyə, Ukrayna, Rusiya və Bolqarıstanda təqdim olunub.

Rəssamın maraqlı işləri arasında "Gözəl", "Natürmort", "Güllər", "At", "Nərdivanlar", "Novxanı bağları", "Abşeron", "Dəvə", "Aşıq", "Zamanın ipi", "İçərişəhər", "Qara çıraqlar", "Gözləmə", "Mənim xəyali şəhərim", "Kəndin şəcərə ağacı", "Şuşa. Cıdır düzü", "Bakı mənzərəsi", "Çanaqqala döyüşü" və başqa bir çox əsərləri qeyd edə bilərik.

Onun yaradıcılığında Nizami Gəncəvinin "Xəmsə"sindən "Yeddi gözəl"ə həsr olunmuş silsilə də var. Yeddi gözəl, dahi şairin əsərində olduğu kimi, bədii müstəvidə də dolğun və ifadəli bir biçimdə icra olunub. Hər gözəlin öz xəyali mənası, öz simvolik mahiyyəti var. Bundan başqa, Qara Qarayevin 1952-ci ildə yazdığı dünyaca məşhur baletin də təsirlərini bu silsilədə görmək olar. Nizami məsnəvisi, Qara Qarayev bəstəsi və Cəlal Ağayevin sənətkar baxışını özündə birləşdirən bu silsilənin hər bir detalı əsl sənət nümunəsini xatırladır.

Onun yaradıcılığında təravətli gül təsvirləri də xüsusi yerə malikdir. Təbiətin gözəlliyinin üzərinə ələndiyi bu güllərin hər biri xüsusi, bəlağətli palitra ilə tamamlanıb. Rəssamın qəlbinin işığı ilə şölənən hər bir kompozisiyasında güclü emosiya, xəyal aləmi, estetik zövq duyanır.

Rəssam ətirlənmiş, təzələnmiş çiçəklərlə yanaşı, təbiət mənzərələri, xüsusilə də doğma Abşeronu xüsusi ovqatla kətan üzərində təqdim edir. Onun qızılı çalarlarla bəzənən, günəşdən pay alan "Abşeron" əsəri buna ən gözəl nümunədir. Müəllif tamaşaçıları sanki cənnət qədər möcüzəvi bir aləmə səyahətə yola salır. Üzərinə şölələnib nur saçan günəşin istisi ilk baxışdan izləyicini özünə valeh edir. Kölgə salındıqca daha çox nazlanan Abşeron təsvirini isə rəssam "Abşeron 2" adlı tablosunda təqdim edib. Abşeronun küləkləri də özü kimi nəğməkardır. Sarı, qızılı günəş ilə təzad yaradan soyuq çalarlı kölgələr əsərin ümumi bədii gücünü daha da artırır.

Cəlal Ağayevin natürmort nümunələrində ilk baxışdan Şərqin ab-havası duyulur, milli və ənənələrə xas ovqat sezilir. Mis qablar, dəyərli çeşnilərimiz ilə bəzənən xalça nümunələri, kompozisiyada orientallıq və dekorativliyin pozulmaz vəhdəti bu əsərləri səciyyələndirən əsas faktorlardır.

Onun yaradıcılığında diqqətçəkən fərqli və maraqlı nüanslardan biri də animalistik fiqurlardır. Xüsusilə də, at fiquru. At fiqurları rəssam üçün səssiz enerji, heyvan təbiəti üçün sanki metaforadır. Onlar tamaşaçılarla emosiya vasitəsilə sözsüz ünsiyyət qura bilirlər. At fiqurları stilizə olunmuş bir biçimdə kətanda öz əksini tapırlar. Xüsusi şux rənglərlə boyanıb, sanki müəyyən əhvalatı özlərində ehtiva edirlər. Fiqurlardakı forma və rəng həm harmonik, həm də təzad səciyyə daşıyır.

Cəlal Ağayevin əsərlərinin arxasında ümumiləşdirdiyi qədim tarix, milli və adət-ənənələrimizi özündə ehtiva edən mənalı bir dünya gizlənib. O həm əsərlərinin hər incə detallarında qəlbindəki sirləri faş edir, həm də eyni detalların arxasında bir çox mümmanı kölgələyir. Vətəni, hiss və düşüncələrini, insanı, gözəli tərənnüm etməkdən əsla çəkinməyən usta sənətkara həyat və yaradıcılıq yolunda bitib-tükənməyən nailiyyətlər arzu edirik.





Cəlal Ağayev həm emosional, həm də fiziki enerjini kətanda əks edə bilir. Onun əsərləri abstrakt/ekspressionizm, impressionizm və realizm arasındakı uçurumu aradan qaldırır. Rəng, faktura və tekstura vasitəsilə dekorativliyi improvizə edən rəssam hər əsərə xüsusi bir fəlsəfi tutum ilə yanaşır.

"Novxanı bağları" əsəri isə zəngin təbiətli Bakı kəndini təcəssüm etdirir. Rəssam xəyal dünyasını bəzəyən, keçmiş dəmləri özündə də ehtiva edən səmimi ovqata malik mənzərə əsərini yaradıb. Bu kolorit həlli onun daxili dünyasından, Abşerona bağlılığından, individual əhvali-ruhiyyəsindən xəbər verir. Bu əsərdə də göründüyü kimi, rəssamın bədii qayğılarından biri də kompozisiyanın ümumi tarazlığıdır. Təbiəti balans içində təsvir etməsi, emosional reaksiyası, bədii intuisiyası həmin əsərlərin ümdə amillərinə çevrilir.

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi 24–26 yanvar

### Azərbaycan

**24 yanvar 1905** – Ədəbiyyatşünas alim Məmmədkazım Ələkbərli (1905–1938) Dərbənd şəhərində anadan olub. BDU-nun rektoru, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin ilk sədri olub. Repressiya qurbanıdır.

**24 yanvar 1909** – Xalq artisti, professional təhsil almış ilk azərbaycanlı dirijorlardan Əşrəf Həsən oğlu Həsənov (1909 – 9.8.1983) Şəkidə anadan olub.

**24 yanvar 1921** – Əməkdar incəsənət xadimi, rəssam Eyyub Əliağa oğlu Məmmədov (1921 – 27.8.1994) Bakıda anadan olub. Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbində müəllim, direktor işləyib.

**24 yanvar 1922** – Aşıq Şakir (Şakir Şahverdi oğlu Hacıyev; 1922 – 10.4.1979) anadan olub.

**24 yanvar 1941** – Xalq artisti, tanınmış qarmon ifaçısı Aftandil Eynulla oğlu İsrafilov (1941 – 29.4.2023) Bakıda anadan olub.

**24 yanvar 2019** – Prezident İlham Əliyev görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**25 yanvar 1887** – Yazıçı, ədəbiyyatşünas, pedaqoq Seyid Hüseyn (Hüseyn Mirkazım oğlu Sadıqzadə; 1887 – 6.1.1938) Bakıda doğulub. Bu gün də bədii təravətini saxlayan maraqlı hekayələrin müəllifidir. Repressiya qurbanı olub.

**25 yanvar 1984** – Görkəmli teatr və kino aktyoru, Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov (4.8.1915 – 1984) vəfat edib. Akademik Milli Dram Teatrında, kinoda ("Bir qalanın sirri", "Nəsimi", "Əhməd haradadır?", "Tütək səsi" və s.) yaddaqalan obrazlar yaradıb.

**25 yanvar 2021** – Prezident İlham Əliyev görkəmli elm xadimi Lütfi Zadənin (1921-2017) 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**26 yanvar 1863** – Maarifçi alim, ədəbiyyatşünas və publisist Firidun bəy Köçərli (1863-1920) Şuşada doğulub. Qori Müəllimlər Seminariyasında dərs deyib. Seminariyanın Azərbaycan bölməsinin Qazaxa köçürülməsindən sonra ona rəhbərlik edib. 1920-ci ilin mayında Gəncədə antisovet üsyanı zamanı güllələnib.

**26 yanvar 1931** – Əməkdar rəssam, tanınmış heykəltəraş Albert Zaman oğlu Mustafayev (1931 – 4.3.2022) Şəkidə doğulub. Bakıda "Bəhram Gur əjdahanı öldürür" fontan-kompozisiyasının həmmüəllifi, Nizami Kino Mərkəzinin baş fasadındakı Nizami heykəlinin, vaxtilə Şuşada, Molla Pənah Vaqifin məqbərəsində qoyulmuş Vaqifin heykəlinin müəllifidir.

**26 yanvar 1933** – Xalq artisti, bəstəkar Musa Abdulla oğlu Mirzəyev (1933 – 29.1.2016) Bakıda doğulub. Simfoniya, simfonik orkestr üçün əsərlər, kantata, vokal silsiləsi, mahnıların müəllifidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**26 yanvar 1934** – Əməkdar rəssam Elçin Muxtar oğlu Aslanov (1934–2018) Bakıda doğulub. Kitab qrafikası ilə məşğul olub, Akademik Dram Teatrında tamaşalara səhnə tərtibatı verib, "Nəsimi" bədii filminin geyim üzrə rəssamı olub.

**26 yanvar 2008** – Görkəmli xanəndə, Xalq artisti İslam Tapdıq oğlu Rzayev (11.11.1934 – 2008) vəfat edib. Muğam Teatrının yaradıcısı və 20 ilə yaxın bədii rəhbəri olub.

**26 yanvar 2010** – Prezident İlham Əliyev məşhur cazmen, pianoçu və bəstəkar Vaqif Mustafazadənin 70 illik yubileyi haqqında sərəncam imzalayıb.

### Dünya

**24 yanvar 1732** – Fransız dramaturqu Pyer Bomarşe (Pierre-Augustin Caron de Beaumarchais; 1732–1799) anadan olub. "Sevilya bərbəri", "Fiqaronun evlənməsi" komediyalarının müəllifidir.

**24 yanvar 1776** – Alman yazıçısı Ernst Teodor Vilhelm Amadey Hofman (Ernst Theodor Amadeus Hoffmann; 1776–1822) anadan olub. "Birələr hökmdarı" romanı, "Şelkunçik və siçanlar kralı" nağılı (P.Çaykovski nağıl əsasında "Şelkunçik" baleti yazıb) və s. əsərlərin müəllifidir.

**24 yanvar 1901** – SSRİ Xalq artisti, kinorejissor Mixail İliç Romm (1901–1971) anadan olub. "Adi faşizm" sənədli filmi ilə xüsusilə tanınıb.

**25 yanvar 1759** – Şotland şairi Robert Berns (Robert Burns; 1759 – 21.7.1796) anadan olub. Şairin şərəfinə 25 yanvar Şotlandiyada milli bayram kimi qeyd olunur.

**25 yanvar 1874** – İngilis yazıçısı Vilyam Somerset Moem (William Somerset Maugham; 1874-1965) anadan olub. Əsərləri: "Ehtiraslar yükü", "Ay və quruş" (romanlar), "Teatr" (povest) və s.

**25 yanvar 1938** – Rus şairi və müəllif mahnılarının ifaçısı, aktyor Vladimir Semyonoviç Visotski (1938 – 25.7.1980) anadan olub. "Görüş yerini dəyişmək olmaz", "Tayqanın sahibi" və s. filmlərdə çəkilib.

**26 yanvar 1925** – Amerika aktyoru, rejissor Pol Nyuman (Paul Leonard Newman; 1925–2008) anadan olub.

**Hazırladı: V.Orxan**

## Uşaq Kitabxanasının anım tədbirləri

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 2 nömrəli filialı Y.Yusifov adına 265 nömrəli məktəbin VIII sinif şagirdləri ilə birgə 265 saylı məktəbdə "20 Yanvar – qəhrəmanlıq salnaməsi" adlı tədbir keçirib.



Məktəbin kitabxanaçısı N.Əhmədova 20 Yanvar gününün Azərbaycanın müasir tarixinə təkcə dəhşətli faciə deyil, eyni zamanda xalqımızın qəhrəmanlıq salnaməsi kimi daxil olduğunu qeyd edib.

Uşaq Kitabxanasının 2 saylı filialının əməkdaşı G.Seyidova bildirib ki, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür.

Tədbirdə ənənəvi kitab sərgisi nümayiş olunub.

***




Respublika Uşaq Kitabxanasının 3 saylı filialı və H.Cəbrayılov adına 99 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə 20 Yanvar hadisəsinin 34-cü ildönümü münasibətilə "Qəhrəmanlıq zirvəsi" adlı tədbir keçirilib.

Tədbirdə şagirdlərin ifasında şeirlər səslənib və 20 Yanvar hadisələrindən bəhs edən videoçarx nümayiş etdirilib. Məktəbin foyesində kitab sərgisi nümayiş olunub. Sərgidə o məşum gecəni əks etdirən kitablar yer alıb.

# "Berlinale – 2024"ün proqramı elan edilib

## "Qızıl ayı" uğrunda 74-cü yarışma

15-25 fevral tarixlərində keçiriləcək 74-cü Berlin Beynəlxalq Film Festivalı (Berlinale – 2024) müsabiqə proqramını elan edib. Berlinalenin rəsmi proqramına, eləcə də "Encounters" ("Görüşlər") proqramına 20 film daxil edilib.




Festivalın saytında yer alan məlumata görə, "Qızıl ayı" uğrunda müsabiqə proqramını belçikalı kinorejissor Tim Milantsın "Belə xırda şeylər" tarixi dramı (baş rolda irlandiyalı aktyor Killian Mörfi çəkilib) açacaq.

Həmçinin mavritaniyalı rejissor Abderrahman Sissako "Qara çay", Meksika kinorejissor Alonso Ruispalasios "Mətbəx", Seneqal əsilli Fransa aktrisası və rejissoru Mati Diop "Daqomeya" filmləri ilə festivala qatılacaq.

Bundan əlavə, proqrama Bruno Dumontun (Fransa) "İmperiya", Marqarita Vikarionun (İtaliya) "Qələbə!", Olivye Assayasın (Fransa) "Vaxtdan kənar", Andreas Drezenin (Almaniya) "Hildadan sevgi ilə", Betaş Sanex və Miriam Mokvadamın (İran) "Ən sevdiyim tort", Kler Byurgerin (Fransa) "Yad dil", Meryam Juberin (Tunis əsilli Kanada rejissoru) "Mən kimə aidəm" filmləri daxil edilib.

"Encounters"in proqramında yunanıstanlı rejissor Yorqos Zoisin "Arkadiya", amerikalı rejissor Ben Rasselin "Birbaşa hərəkət" və digər ekran əsərləri daxil edilib.

Festivalın proqramında Avropada şöhrət qazanan koreyalı rejissor Honq Sanqsunun "Səyyahın ehtiyacları" filmi də var. Filmin premyerası rejissora pandemiya zamanı (2021) layiq görüldüyü fəxri "Qızıl ayı" mükafatını, nəhayət, almaq üçün fürsət olacaq. 2024-cü ilin fəxri mükafatı isə amerikalı rejissor Martin Skorsezeyə veriləcək.

Builki Berlinalenin münsiflər heyətinin sədri ilk dəfə qaradərili aktrisa – Keniya əsilli meksikalı ulduz Lupita Nyongo olacaq.

Qeyd edək ki, 74-cü Berlin Beynəlxalq Film Festivalı günlərində, həmçinin "Avropa Film Bazarı" (European Film Market), "Berlinale Birgə İstehsalat Bazarı" (Berlinale Co-Production Market) keçiriləcək.

**V.Kamal**

# Dünyanın ənənəvi incəsənət paytaxtları sırasına yeni şəhərlər daxil olur

Onlayn incəsənət bazarı kimi 4 mindən çox qalereya və auksionu əhatə edən "Artsy" portalı (Artsy.net) 5 ölkədən dünyanın yeni incəsənət paytaxtları ola biləcək şəhərlərin siyahısını tərtib edib. Bildirilir ki, həmin şəhərlər London, Nyu-York və Paris kimi tanınmış art-mərkəzlərlə rəqabət təşkil edə bilər.

Ekspertlərin seçimlərinə bir çox amillərlə yanaşı, yerli qalereya şəbəkəsinin şaxələnməsi, illik art-yarmarkaların sayı, sərgi proqramının müxtəlifliyi və aktiv kolleksiyaçıların təxmini sayı öz təsirini göstərib.

Dünyanın yeni incəsənət paytaxtları olmağa iddiaçılar sırasında Cənubi Koreyanın liman şəhəri – Asiyaya mədəni və iqtisadi qapıları olan Busan var. Ötən ilin yayında 22 ölkədən 145 qalereyanın iştirak etdiyi "Art – Busan" yarmarkasında satışda 20 faizlik artım müşahidə edilmişdi.

Atlanta (ABŞ) da dünya art sənayesində sürətlə inkişaf edən şəhərlərdən birinə çevrilməkdədir. Burada "United Talent Agency", "Jackson Fine Art" və "Wolfgang Gallery" kimi qalereyalar adlarından söz etdirirlər.

"Cənubi Avropanın aparıcı mədəniyyət hablarından biri" kimi təqdim edilən Marsel (Fransa) isə Parislə müqayisədə kirayə haqqının daha aşağı olması ilə ilk addımlarını atan studiyaların sığınacağına çevirib. Burada art-iqamətgahların şəbəkəsi fəal inkişaf edir.

Materialda dünyanın perspektivli incəsənət mərkəzlərinin sırasında Qahirə (Misir) və İbitsa (İspaniya) şəhərlərinin də adları çəkilir.




# "İstiqbal göylərdədir"



Xəbər verildiyi kimi, yanvarın 19-da kosmosa göndərilən "SpaceX" şirkətinin "Dragon" kosmik gəmisində ilk türkiyəli astronavt Alper Gezeravcı da var. "Ax-3" (Axiom-3) heyətinə türk astronavtla yanaşı, missiyanın rəhbəri ispaniyalı astronavt Michael Lopez-Alegria, İtaliya Hərbi Hava Qüvvələrinin pilotu Valter Villadei və Avropa Kosmik Agentliyindən isveçli Markus Vandt daxildir.

NASA-nın Kennedi Kosmik Mərkəzindən (Florida ştatı) "SpaceX"in "Falcon 9" daşıyıcı raketi ilə havaya qalxan "Dragon" Yerdən 400 km hündürlükdə təxminən 36 saatlıq orbital uçuşdan sonra, yanvarın 20-də (Bakı vaxtı ilə saat 14:42-də) Beynəlxalq Kosmik Stansiyaya (BKS) qoşulub.

Ax-3 komandasını 27 sentyabr 2023-cü ildən stansiyada olan yeddinəfərlik beynəlxalq heyət (rus, amerikalı, yapon və danimarkalı astronavtlar) sevinclə qarşılayıb. Beləliklə, hazırda BKS-də 11 astronavt var.

Türkiyənin ilk astronavtı BKS-də 14 gün qalacaq və 13 fərqli elmi təcrübədə iştirak edəcək. Təcrübələrin inteqrasiya işləri Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK), "Axiom Kosmos" və NASA ilə koordinasiyalı şəkildə həyata keçiriləcək.

Xatırladaq ki, "Dragon" gəmisindən ilk canlı yayımda Alper Gezeravcı təəssüratını Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün vaxtilə dediyi dahiyanə sözlərlə ifadə edib: "İstiqbal göylərdədir". O, BKS-dən Türkiyəyə və dünyaya xitabında bunu bir daha vurğulayıb: "Türkiyə Cümhuriyyətini quran və onu bizə əmanət edən Qazi Mustafa Kamal Atatürkə və silahdaşlarına, bu vətən uğrunda canından keçən bütün şəhidlərimizə və buraya addım atmağımızı güclü iradəsi ilə təmin edən dövlətimizə və millətimizə minnətdarlığımı bildirirəm".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da ölkənin ilk astronavtının kosmik səyahəti ilə bağlı videomüraciəti yayımlanıb. "Elm tarixinə misilsiz töhfələr vermiş bir sivilizasiyanın varisləri olaraq biz tarixdə daşıdığımız missiyanı yenidən yerinə yetirmək üçün çox dəyərli yeni bir başlanğıc edirik", – deyə videomüraciətdə vurğulanıb.

Prezident Ərdoğan həmçinin yanvarın 21-də Gezeravcı ilə videobağlantı ilə danışıb.

Türkiyənin astronavt namizədləri Alper Gezeravcı və Tuva Cihangir Ataseverin adları ilk dəfə 2023-cü il aprelin 29-da İstanbulda "TEKNOFEST"də ictimaiyyətə açıqlanmışdı. Bundan sonra namizədlər ABŞ, Yaponiya, Almaniya və Türkiyədə təlim keçiblər. Nəticədə missiya üçün əsas astronavt olaraq Gezeravcı seçilib.

Yerli medianın məlumatına görə, Türkiyə bu kosmik missiyanın gerçəkləşməsi üçün ümumilikdə 55 milyon dollar ödəyib.

1979-cu ildə Mersində anadan olan Alper Gezeravcı hərbi hava mühəndisliyi təhsili alıb. Türkiyə Hərbi Hava Qüvvələrində, eləcə də "Türk Hava Yolları"nda kapitan pilot kimi ümumilikdə 20 ilə yaxın uçuş təcrübəsi var.

## Xronoqraf

### 236 il əvvəl...

**26 yanvar 1788-ci ildə** Avstraliya Böyük Britaniya imperiyasının nəzarətinə keçib. İngilis admiral Artur Filippin başçılığı ilə ilk kolonistlər dəstəsi "yaşıl materikə" gəlib. Britaniyanın daxili işlər naziri Lord Sidneyin adı ilə yeni şəhərin əsası qoyulub. Avstraliya bu gün də formal olaraq Britaniya Krallığına tabedir və Britaniya Birliyinin üzvüdür. 26 yanvar isə ölkədə milli bayram – "Avstraliya günü" kimi qeyd edilir.

### 107 il əvvəl...

**25 yanvar 1917-ci ildə** Amerika Birləşmiş Ştatları Danimarka Krallığının müstəmləkəsi olan Vest-İndia adalarını (indiki Virciniya adaları) o vaxtın pulu ilə 25 milyon dollara satın alıb. ABŞ-ın Karib dənizində sahib olduğu adaların ümumi sahəsi 346 kvadrat kilometr idi.

### 100 il əvvəl...



**25 yanvar 1924-cü ildə** Fransanın Şamoni (Chamonix-Mont-Blanc) şəhərində ilk Qış Olimpiya Oyunları başlayıb. 18 idman növü üzrə keçirilən olimpiadaya 16 ölkə qatılıb.

# Tarixdə bu gün



## Olaylar, faktlar (24–26 yanvar)

1988-1989-cu illərdə ümumilikdə 230 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisi olan tarixi ata-baba yurdlarından zorla qovuldu.

### 75 il əvvəl...

**25 yanvar 1949-cu ildə** sosialist inkişaf yolu seçmiş ölkələrin iqtisadi birliyi – Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradılıb. SSRİ, Bolqarıstan, Çexoslovakiya, Polşa, Rumıniya və Macarıstanın yer aldığı təşkilat ABŞ-ın Qərbi Avropanı təsir altına almasına – "Marşall planı"na cavab addımı idi. Sonrakı illərdə Albaniya, ADR və Monqolustan da təşkilata qoşuldu. 1990-cı ildə sosialist düşərgəsi ilə bərabər, QİYŞ da süqut etdi.

### 74 il əvvəl...

**26 yanvar 1950-ci ildə** Britaniyanın müstəmləkəsi Hindistan müstəqilliyini elan edib. Hindistan iki əsrə yaxın ingilis müstəmləkəsi olub. Müstəqillikdən 15 il sonra hind dili ölkədə rəsmi dövlət dili elan olundu. Bununla belə, Hindistanda ingilis dili də ikinci dövlət dili statusundadır.

### 36 il əvvəl...

**25 yanvar 1988-ci ildə** Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi şəkildə deportasiyası başlanıb. Azərbaycanlı qaçqınların ilk dəstəsi respublikamıza pənah gətirib.

### 32 il əvvəl...

**24 yanvar 1992-ci ildə** Azərbaycan Parlamenti (Ali Sovetin Milli Şurası) "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət edib. Avropa Şurası Parlament Assambleyası 1996-cı ildə Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusu verdi.

### 23 il əvvəl...



**25 yanvar 2001-ci ildə** Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv olub. Strasburqda, Avropa Şurasının mənzil-qərargahının qarşısındakı flaqştoka Azərbaycan Dövlət bayrağı qaldırılıb. Mərasimdə Prezident Heydər Əliyev iştirak edib.

**Hazırladı: V.Orxan**

# Azərbaycanlı virtuoz Moskvada konsert verəcək

Moskvada azərbaycanlı virtuoz skripka ifaçısı, Əməkdar artist Elvin Hoca Qəniyevin konserti olacaq.



Fevralın 2-də "Zaryadye" konsert zalında keçiriləcək konsertdə Elvin Hoca Qəniyev dirijor Marius Stravinskinin rəhbərliyi altında Çaykovski adına Böyük Simfonik Orkestrinin müşayiəti ilə çıxış edəcək. Proqramda Türkiyənin görkəmli bəstəkarı və dirijoru Ülvi Cemal Erkinin (1906–1972) skripka konserti təqdim olunacaq. Konsertin birinci hissəsinin sonunda Frans Vaksmanın skripka ilə orkestri üçün Bizenin "Karmen" operasından "Fantaziya" da səsləndiriləcək.

27 yaşlı Elvin Hoca Qəniyev indiyədək David Oystrax, Qenrik Venyavski, Karol Lipinski, Yaşa Xeyfes adına və bir çox digər nüfuzlu beynəlxalq müsabiqələrin laureatı olub. 2018-ci ildə Berlində beynəlxalq müsabiqənin qızıl medalına layiq görülüb. Hannover Musiqi, Dram və Media Universitetində magistr təhsili alıb. 2018-ci ildə (21 yaşında) Azərbaycanda "Əməkdar artist" fəxri adına layiq görülən ən gənc sənətçi olub.

# "Pleybek-teatr" nədir?

## Siz deyirsiniz, biz oynayırıq...

Bakıdakı Rus Evində (Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi) "Pleybek-teatr" adlı tədbir təşkil olunub. Tədbir Azərbaycanın Rus Gəncləri Assosiasiyası tərəfindən keçirilib.



Pleybek-teatr tamaşaçıların öz hekayələrini təqdim etdikləri, aktyorların isə onları səhnədə canlandırdıqları tamaşa formatıdır. Burada hər bir tamaşa izləyicilərin gözləri önündə yaranır. Bu, hər hansı hadisədən doğan təəssürat, yaxud insanın hafizəsində qalan bir vəziyyət də ola bilər. Aktyorlar isə süjeti tam dəqiqliklə canlandırmırlar, həmin süjetdə gördüklərini nümayiş etdirirlər.

Bu, klassik mənada teatr demək deyil. Bu formatda hər bir tamaşaçı tamaşanın həmmüəllifi və qəhrəmanı ola, özünə, necə deyərlər, kənardan baxa bilər...

# Bu il qlobal turizm pandemiyadan əvvəlki səviyyəyə qayıdacaq

BMT-nin Dünya Turizm Təşkilatı bildirib ki, 2023-cü ildə turizm sektorunda əldə olunan uğurlardan sonra beynəlxalq turizmin bu il pandemiyadan əvvəlki səviyyələrə qayıtması gözlənilir. Məlumata görə, səyahətə tələbatın artması, hava əlaqəsinin gücləndirilməsi 2024-cü ilin sonuna qədər bu sektorun tam bərpasının əsasını təşkil edəcək.



Qeyd olunur ki, beynəlxalq turizm 2023-cü ildə 1,3 milyard turist sayı ilə pandemiyadan əvvəlki səviyyəsinin 88 faizinə çatıb. Yaxın Şərqdə isə bu rəqəm pandemiyadan əvvəlki dövrdən də yüksək olub. Avropada daxili səyahətin artması və ABŞ-dan gələn səyahətçilər sayəsində həmin göstərici pandemiyadan əvvəlki səviyyənin 94 faizinə çatıb. Afrika və Amerika pandemiyadan əvvəlki ziyarətçilərin 96 faizini bərpa edib, Asiya və Sakit Okean ölkələri isə 2019-cu il səviyyəsinin 65 faizinə çatıb.

DTT-nin hesablamalarına görə, beynəlxalq turizm gəlirləri 2019-cu ildəki 1,5 trilyonla müqayisədə 2023-cü ildə 1,4 trilyon dollar olub. Turizmin qlobal ümumi daxili məhsulda payı isə ötən il 3 faiz təşkil edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5077. **Sifariş:** 142

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641